HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 32 (823) ▪ 17 avqust 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Prezident İlham Əliyev Qəbələ, Şəki və İsmayıllı rayonlarında səfərdə olub

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 10-da Qəbələ rayonuna səfərə gəlib. Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub. Sonra Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan uşaq bağçasının açılışında və Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının yeni inzibati binasının açılışında



Prezident İlham Əliyev avqustun 10-da Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Qəbələ regional «ASAN xidmət» mərkəzinin açılışında iştirak edib. Dövlətimizin başçısına bildirilib ki, mərkəz rayonun Elçin Kərimov küçəsi 79 ünvanında, şəhərin infrastruktur obyektlərinə yaxın ərazidə yerləşir. «ASAN xidmət» mərkəzinin fəaliyyətindən Qəbələ də daxil olmaqla, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, İsmayıllı, Ağsu, Şamaxı və Qobustan rayonları ərazisində qeydiyyatda olan vətəndaşlar, ümumilikdə, 902 min 435 sakin yararlanacaq. Prezident İlham Əliyev Mərkəzdə yeni layihələrlə də tanış olub. Dövlətimizin başçısına «ASAN wifi» layihəsi barədə məlumat verilib. Bildirilib ki, müxtəlif yerlərdə quraşdırılan simsiz internet modemləri vasitəsilə insanların internetə əlçatanlığı təmin ediləcək. Bu layihə vasitəsilə dövlət əhəmiyyətli məlumatlar vətəndaşlara daha asan çatdırılacaq. Bundan əlavə, ASAN TV-nin tətbiqi də nəzərdə tutulub. Bu, Azərbaycana idxal ediləcək bütün smart televizorlarda istifadəyə hazır xüsusi bir tətbiq olacaq. Tətbiq vasitəsilə insanlar televizorda ASAN Radionu dinləyəcək, «ASAN xidmət»in fəaliyyəti, mərkəzlərə getmək üçün ictimai nəqliyyat vasitələri, həmçinin mərkəzlərdə növbəlilik statistikası və digər zəruri məlumatları əldə edəcəklər. Dövlətimizin başçısının diqqətinə çatdırılıb ki, Azərbaycan və ingilis dillərində dərc edilən «ASAN» jurnalı üçün nadir qeydiyyat nömrəsi olan beynəlxalq standart seriya nömrəsi əldə olunub və beynəlxalq reyestrə daxil edilib. Yeniliklərdən biri də «ASAN VİSA» portalıdır. Bu portal vasitəsilə vizaların verilməsinin tam elektronlaşdırılması və sadələşdirilməsi həyata keçiriləcək. Əcnəbilər sadəcə üç addımda onlayn vizanı elektron formada üç iş günü ərzində alacaqlar. Artıq «ASAN i-LAB» innovasiya laboratoriyası da hazırdır. «i-LAB» innovativ texnologiyalar və proqram təminatı yaradılması ilə bağlı layihələri cəlb edərək onların reallaşdırılması, hazır məhsul istehsalına dəstəyin göstərilməsi və məhsulun yerli və xarici bazarlara çıxarılmasına xidmət edən innovasiya laboratoriyasıdır. «BAŞLA» layihəsi çərçivəsində isə istənilən sahəyə aid olan kiçik biznes ideyalarının cəlb edilməsi, maliyyələşdirilməsi və reallaşdırılmasına dəstək göstəriləcək. Yeni layihələr arasında «Cücələrim inkibatoru» da var. Layihənin məqsədi köhnə soyuducuların yenidən istehsala cəlb olunması və onlardan ev quşları təsərrüfatlarının yaradılması üçün inkubatorlar istehsal edilməsidir. Daha bir maraqlı layihə isə «i-LAB store»dur. Bu, «i-LAB» çərçivəsində istehsal edilmiş innovativ texnologiyalar və proqram təminatları haqqında məlumatların yerləşdiyi vahid portaldır. Yeni layihələrdən biri də xilasetmə qolbağıdır. Suda batma zamanı istifadə edilən bu qolbaqlar GPS ilə təmin olunub, avtomatik işə düşmə xüsusiyyətinə malikdir. «Sağlam yaşam platforması - çanta və portal» layihəsi isə vətəndaşlara qısa vaxtda 42 parametr üzrə müayinə olunmağa imkan verən bir sıra avadanlıqdan ibarət səyyar tibbi müayinə çantasıdır.

Prezidenti İlham Əliyev Qəbələdə icrası davam edən turizm və idman infrastrukturu layihələri ilə tanış olub. Dövlətimizin başçısına 2,5 hektar ərazidə 226 nömrədən ibarət yeni «Qafqaz Akva Lənd» otelinin və «Qafqaz Daymond Akvapark»ın inşası barədə məlumat verilib. Azərbaycan Prezidenti «Qəbələ» Park-Bulvar Kompleksinin yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində, «Qafqaz Tufandağ Mountain Resort» otelinin açılışında və Nohurqışlaq-Tüntül-Yengicə avtomobil yolunun əsaslı təmirdən sonra açılış mərasimlərində iştirak edib.

Qəbələyə səfəri çərçivəsində Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev avqustun 10-da Dövlət Sərhəd Xidmətinin Şəki Sərhəd Dəstəsinin «Laza» sərhəd zastavasında yaradılan xidmət və məişət şəraiti ilə tanış olub. Bildirilib ki, sərhəd zastavası Böyük Qafqaz sıra dağlarının ən yüksək zirvəsi olan Bazardüzü istiqamətində fəaliyyət göstərir və dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşir. Yeni layihə üzrə tikilmiş sərhəd zastavasında xidmətin və yaşayışın yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılıb, müasir tələblərə cavab verən əsgər yataqxanası, yeməkxana, istirahət guşəsi, idman zalı, təlim şəhərciyi, müasir tələblərə cavab verən xüsusi təyinatlı binalar inşa olunub. Zabit, gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçuların ailələri üçün 22 mənzilli yaşayış binası tikilib.

Prezidenti İlham Əliyev avqustun 10-da İsmayıllı rayonuna gəlib. Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib. Dövlətimizin başçısı əvvəlcə «İsmayıllı-2» Su Elektrik Stansiyasının, 140 yerlik körpələr evi-uşaq bağçasının və Qaraməryəm-İsmayıllı avtomobil yolunun açılışında iştirak edib, İsmayıllı rayonundakı Olimpiya İdman Kompleksində əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olub.



İsmayıllı rayonuna səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev avqustun 10-da «İSMA BİKES» velosiped istehsalı zavodunun açılışında iştirak edib. Dövlətimizin başçısına bildirilib ki, İsmayıllı şəhərindən 6 kilometr məsafədə yerləşən Diyallı kəndi ərazisində inşa olunmuş bu istehsal müəssisəsinin layihəsi Bolqarıstanın Sofiya velosiped zavodu ilə əməkdaşlıq çərçivəsində icra olunub. Müəssisə Bolqarıstan, Danimarka, Niderland, Çin və Türkiyə istehsalı olan avadanlıqlarla təchiz edilib. Zavodun istehsal gücü ildə 20-30 min velosipeddir. Burada 5 növdə velosipedin istehsalı nəzərdə tutulur. Müəssisədə ilkin mərhələdə 60 işçi çalışacaq. Gələcəkdə zavodun fəaliyyətinin genişləndirilməsi ilə işçilərin sayının artacağı nəzərdə tutulur. Zəruri infrastrukturu ilə Qafqazda yeganə olan bu zavodun məhsulları yüksək keyfiyyəti ilə seçiləcək. Müəssisənin ərazisində müasir velotrek meydançası da yaradılıb. Üç hektar sahəsi olan velotrekdə idman yarışlarının keçirilməsi üçün hər cür şərait var.

Prezident İlham Əliyev müəssisəni işə salıb. Dövlətimizin başçısı zavodun istehsal etdiyi velosipedi sınaqdan keçirib. Rayon ictimaiyyətinin nümayəndələri və müəssisənin kollektivi ilə görüşən Prezident İlham Əliyev zavodun açılışını ölkəmizin inkişafının göstəricisi hesab etdiyini və istehsal olunan velosipedlərin həm daxili bazarda satılacağını, həm də, xaricə ixrac ediləbiləcəyini vurğulayıb. Dövlətimizin başçısı iqtisadiyyatın müxtəlif sahələrdə inkişafı, kənd təsərrüfatı və sənaye istehsalı sahəsində görülən işlərdən, nəqliyyat layihələrindən danışıb. İsmayıllı rayonunda aparılan işləri yüksək qiymətləndirən dövlətimizin başçısı rayonun sürətli inkişaf dövrünü yaşadığını, turizm sektorunun, kənd təsərrüfatının, emal sənayesinin inkişafı ilə bağlı həyata keçirilən tədbirlərin əhəmiyyətinə toxunub. İsmayıllının yaxşı iqtisadi potensialının olduğunu və yeni layihələrin icra ediləcəyini vurğulayıb.

# Rusiya Federasiyası ilə əməkdaşlıq genişlənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana son səfərinin uğurla keçdiyini vurğulayaraq səfər zamanı Azərbaycan və Rusiya prezidentlərinin görüşündə əlaqələrimizin geniş spektrini əhatə edən sahələrlə bağlı müzakirələr aparıldığını, o cümlədən hərbi və hərbi-texniki əməkdaşlığın uğurla reallaşdığını bildirib. Prezident İlham Əliyev iki ölkənin dövlət başçılarının görüşünü xatırlayaraq Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin yüksək səviyyəyə çatmasına, əlaqələrimizin müxtəlif sahələrini əhatə edən məsələlərin, həmçinin regional təhlükəsizlik məsələlərinin həllinə imkan verəcəyinə əminliyini ifadə edib.



Dövlətimizin başçısı bu yaxınlarda Rusiyada keçirilən Beynəlxalq Ordu Oyunlarında Azərbaycan komandasının ilk dəfə çıxışını uğurlu nəticə kimi qiymətləndirib. Rusiya komandasının həmin oyunlarda qələbəsi münasibətilə təbriklərini çatdırıb. Prezident İlham Əliyev Rusiya müdafiə nazirinin Azərbaycana səfərinin hərbi və hərbi-texniki sahədə əməkdaşlığımızın perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparılması işinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Rusiyanın müdafiə naziri Sergey Şoyqu Prezident Vladimir Putinin Azərbaycana səfərinin və səfər zamanı Prezident İlham Əliyev ilə keçirdiyi görüşlərin ikitərəfli münasibətlərin, o cümlədən hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından önəmini vurğulayıb. Sergey Şoyqu Azərbaycan Silahlı Qüvvələri nümayəndələrinin Rusiyada keçirilən Beynəlxalq Hərbi Oyunlarda fəal iştirakını məmnunluqla qeyd edib.

BU NÖMRƏMİZDƏ

İQTİSADİYYATIN MÜASİR MƏRHƏLƏSİ VERGİ ORQANLARI QARŞISINDA YENİ VƏZİFƏLƏR QOYUR 2

«TAX FREE»NİN TƏTBİQİ ÖLKƏNİN TURİZM ÜZRƏ RƏQABƏT QABİLİYYƏTİNİ ARTIRIR 3

2016-CI İLDƏ VERGİ İSLAHATLARININ PERSPEKTİVLƏRİ 4

REGİONLARDA VERGİ SAHƏSİNDƏ APARILACAQ İSLAHATLARLA BAĞLI GÖRÜŞLƏR KEÇİRİLİB 5

# İqtisadiyyatın müasir mərhələsi vergi orqanları qarşısında yeni vəzifələr qoyur

**Avqustun 10-da Vergilər Nazirliyində Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı və bu sərəncamla bağlı Vergilər Nazirliyinin qarşısında duran vəzifələrə həsr edilmiş mətbuat konfransı keçirilmişdir. Tədbirdə Vergilər nazirinin müavini İlkin Vəliyev, Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Mahir Rəfiyev və Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəis müavini Şamil Ərəbov iştirak etmişlər.**




Son 10 ildə vergi daxilolmaları 2,6 dəfə, qeyri-neft-qaz sektorundan daxilolmalar 4,9 dəfə, regionlardan büdcə daxilolmaları isə 7,2 dəfə artıb. Qeyri-neft-qaz sektorundan daxilolmaların ümumi vergi daxilolmalarında xüsusi çəkisi hazırda 77,3%-ə çatır

Tədbirdə çıxış edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev bildirmişdir ki, sərəncamda qarşıya qoyulan tapşırıqlar bu günədək vergi sahəsində aparılan islahatların, görülən işlərin davamıdır və bütünlüklə vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin tənzimlənməsi, xidmət səviyyəsinin daha da artırılması və eyni zamanda vergi-nəzarət tədbirlərinin tam avtomatlaşdırılması işinə xidmət edir.

Qeyd edilmişdir ki, son 10 ildə vergi sistemi əsaslı şəkildə modernləşdirilib, vergi inzibatçılığı kökündən dəyişdirilərək beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilib, vergi orqanları ilə vergi ödəyiciləri arasında texnoloji baxımdan mükəmməl elektron əlaqələrin yaradılması, geniş təhlil bazasına malik informasiya sistemlərinin qurulması istiqamətində də mühüm tədbirlər həyata keçirilib. Son 10 ildə vergi daxilolmaları 2,6 dəfə, qeyri-neft-qaz sektorundan daxilolmalar 4,9 dəfə, regionlardan büdcə daxilolmaları isə 7,2 dəfə artıb. Qeyri-neft-qaz sektorundan daxilolmaların ümumi vergi daxilolmalarında xüsusi çəkisi hazırda 77,3%-ə çatır.

Nazir müavini elektron xidmətlərin tətbiqi sahəsində görülən işlərə toxunaraq hazırda vergi ödəyicilərinin təxminən 90 faizinin vergi bəyannamələrini elektron şəkildə təqdim etdiyini vurğulayaraq bildirmişdir ki, artıq vergi ödənişləri plastik kartlarla internet üzərindən həyata keçirilə bilir, dünya təcrübəsində ən mütərəqqi yeniliklərdən olan elektron audit və ASAN imza kimi mühüm layihələr yalnız regionda deyil, ümumilikdə postsovet məkanında ilk dəfə Azərbaycanın vergi sistemində reallaşdırılıb. Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan e-qeydiyyat sisteminin uğurlu tətbiqi üzrə dünyanın aparıcı dövlətləri sırasındadır.

Azərbaycan iqtisadiyyatının sürətli inkişafı, son 10 ildə vergi ödəyicilərinin sayının 5 dəfədən çox artması nəticəsində yeni vergitutma mənbələri yaranmışdır. Bu baxımdan rəqəmsal iqtisadiyyatın inkişafı vergi orqanları qarşısında yeni vəzifələr qoyur.

Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə Prezidenti 2016-cı ilin birinci yarısında genişmiqyaslı iqtisadi islahatlar aparıldığını, o cümlədən vergi sahəsində də belə islahatların həyata keçirildiyini bildirib, bununla yanaşı, büdcəyə daha çox vəsait toplanması üçün imkanlar olduğunu qeyd edib və həmin ehtiyatların aşkarlanması, ilin sonunadək bu sahədəki vəziyyətin tam şəffaflaşdırılması ilə bağlı konkret tapşırıqlar verib. Həmin tapşırıqların icrası məqsədilə avqustun 4-də Azərbaycan Respublikasının Prezidenti «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncam imzalayıb. Bu sərəncam vergi sisteminin inkişafında, xüsusilə də vergi inzibatçılığının həyata keçirilməsində yeni bir mərhələdir.

İlkin Vəliyev qeyd edib ki, sərəncamda müəyyən edilmiş islahatların başlıca istiqamətləri biznes mühitinin daha da yaxşılaşdırılmasını, vergi qanunvericiliyində sahibkarlıq fəaliyyəti üçün daha əlverişli şərtlərin yaradılmasını və sahibkarların hüquqlarının genişləndirilməsini, həmçinin vergitutma bazasının genişləndirilməsini və vergi nəzarətinin səmərəliliyinin artırılmasını əhatə edir.

Bildirilib ki, vergi qanunvericiliyinin verdiyi hüquqlardan sui-istifadə etməklə vergidən yayınan vergi ödəyicilərinin vergitutma obyektlərini şəffaf şəkildə vergiyə cəlb etmək və vergitutma bazasının gizlədilməsinin qarşısını almaq məqsədilə vergi qanunvericiliyinə hüquqlardan sui-istifadə əleyhinə müddəaların daxil edilməsi də nəzərdə tutulub.

Artıq Vergilər Nazirliyində ölkə Prezidentinin sərəncamı ilə əlaqədar kollegiya iclası keçirilib və sərəncamla müəyyən edilmiş tapşırıqların icrası ilə bağlı tədbirlər planı qəbul olunub.

Daha sonra KİV nümayəndələrinin sualları cavablandırılıb.

**«Trend.az»agentliyinin sualı transfer qiymətləndirmənin aradan qaldırılması və rəqəmsal ticarətin vergiyə cəlb olunması məsələlərinə aydınlıq gətirilməsi ilə bağlı idi.**

***İlkin Vəliyev:*** Sərəncamda da göstərildiyi kimi, bütün istiqamətlər üzrə qarşıya qoyulan vəzifələr qısa müddətdə - üç ay ərzində öz həllini tapmalıdır.

Transfer qiymətləndirmənin, başqa sözlə desək, qiymətlərin süni şəkildə şişirdilməsinin qarşısının alınması üçün qanunvericilik bazasının yaradılması mövzusunda artıq nazirlik daxilində müzakirələr aparılmışdır. BMT-nin və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının transfer qiymətləndirmənin qarşısının alınması ilə bağlı metodologiyaları var və biz daxili qanunvericiliyimizdə bu beynəlxalq təcrübədən istifadə edəcəyik.

Rəqəmsal ticarətlə bağlı onu deyə bilərik ki, bu gün bir çox vergi ödəyiciləri öz əməliyyatlarını internet vasitəsilə yerinə yetirirlər. İnternet məkanında applicationların - proqram təminatlarının yüklənməsi halları da mövcuddur və bu, nəzarətdən kənardadır. Bu istiqamətlərdə vergidən yayındırılan xidmət növlərinin vergiyə cəlb olunmasının qaydalarını və vasitələrini müəyyənləşdirən yeni mexanizmlər yaradılmaqdadır. Biz burada da beynəlxalq təcrübəni əsas götürürük. Müəyyən bir çərçivədə artıq bu xidmətlərin hansı qaydada uçota alınacağı, vergiyə cəlb olunacağı qaydalarının istiqamətləri bəllidir.

Qiymətlərin azaldılması ilə sosial xarakterli xidmət göstərilməsinə, uşaq qidalarının, məktəb ləvazimatlarının və dərman preparatlarının qiymətlərinin azaldılmasına çalışırıq

**«Haqqın.az» saytının sualları ofşor zonalarda vergi nəzarətinin necə həyata keçiriləcəyi və «Tax free» sistemindən istifadə barəsində idi.**

***İlkin Vəliyev:*** Sərəncamda göstərilən məsələlər bir-biri ilə qarşılıqlı bağlıdır. Ofşorlara nəzarət və transfer qiymətləndirmənin aradan qaldırılması iki fərqli istiqamət olsa da, ümumilikdə bir sahəni əhatə edir. Vergilər Nazirliyinin digər dövlətlərlə beynəlxalq sazişləri mövcuddur və biz həmin sazişlərə müvafiq olaraq müxtəlif dövlətlərlə məlumat mübadiləsi apara bilirik. Ölkə hüdudlarından kənarda, o cümlədən vergi sığınacağı hesab edilən dövlətlərdə və ya ərazilərdə həyata keçirilən əməliyyatların vergiyə cəlb edilməsi və bu əməliyyatlar üzrə gəlirlərə transfer qiymətlərin tətbiqi ilə bağlı qanunvericiliyə dəyişiklik ediləcək.

«Tax free» hazırda ancaq hava limanlarında həyata keçirilir. Gələcəkdə isə bu sistemin digər sərhəd-keçid məntəqələrində də tətbiqini planlaşdırırıq. «Tax free» iyun ayından tətbiq olunsa da, artıq 104.000 manata yaxın vəsait ƏDV əcnəbi vətəndaşlara qaytarılıb ki, bu da alış-veriş üzrə 2 milyon manatdan yuxarı dövriyyə deməkdir.

**«Sputnik.az» informasiya agentliyinin və «Lider TV»nin sualları bəzi ərzaq məhsullarına (məsələn, uşaq qida məhsullarına) ƏDV güzəştlərini, bu güzəştlərin digər məhsulların qiymətlərinin artımına təsirini, eləcə də vergi yükünün azaldılmasını əhatə edirdi.**

***İlkin Vəliyev:*** Biz bu məsələni dəfələrlə müzakirə etmişik. Qanunvericiliyə əsasən, vergi dərəcələrinin artırılmasına yol verilmir, ƏDV-nin diferensiallaşması yalnız azaldılma istiqamətində aparıla bilər. Burada məqsəd qiymətlərin aşağı salınmasıdır. ƏDV istehlakçıdan alınan vergidir və ona görə də birbaşa qiymətə təsir edir. Verginin azaldılması nəticəsində yaranan gəlir hansısa sahibkarın sərəncamında qalmamalıdır. Biz bu addımı atmaqla, yəni qiymətlərin azaldılması ilə sosial xarakterli xidmət göstərilməsinə, uşaq qidalarının, məktəb ləvazimatlarının və dərman preparatlarının qiymətlərinin azaldılmasına çalışırıq.

Bir sıra istehlak mallarının qiymətlərinin ƏDV-nin diferensiallaşdırılması yolu ilə tənzimlənməsi nəzərdə tutulur. Beynəlxalq təcrübədə belə mallara uşaq qidaları, məktəbli ləvazimatları, dərman vasitələri, əlillər üçün tibbi məhsullar və avadanlıqlar, kitablar və bir sıra xidmət növləri daxildir ki, biz qarşıdakı dövrdə bu sahədə beynəlxalq təcrübəni öyrənərək Vergi Məcəlləsinə müvafiq dəyişikliklər etməyi planlaşdırırıq.

***Şamil Ərəbov:*** Ölkədə aparılan iqtisadi dəyişikliklər, əsasən, kiçik və orta sahibkarlığın inkişafına yönəldilib. Vergilər Nazirliyi tərəfindən irəli sürülən təkliflər də başlıca olaraq fiziki şəxslər üçün gəlir vergisinin dərəcəsinin, kiçik və orta sahibkarlıqla məşğul olan hüquqi şəxslər üçün mənfəət vergisinin dərəcəsinin aşağı salınması ilə bağlıdır. Bundan əlavə, Vergilər Nazirliyi tərəfindən kiçik sahibkarlıqla məşğul olan şəxslərdən tutulan ƏDV dərəcəsinin aşağı salınması ilə bağlı təklif də təqdim olunmuşdur. Hazırda Vergi Məcəlləsinin 165.2-ci maddəsinin tələblərinə görə, bu Məcəllənin 165.1.1-ci maddəsi üzrə sıfır (0) dərəcə ilə ƏDV o ölkələrə münasibətdə tətbiq edilir ki, həmin ölkələr tərəfindən 165.1.1-ci maddədə göstərilən işlərə, xidmətlərə və əməliyyatlara görə ƏDV sıfır (0) dərəcə ilə tətbiq edilir. Məcəllənin 168.1.5-ci maddəsində isə xidmətlərin siyahısı müəyyənləşdirilib. Yeni layihədə məhdudlaşdırma aradan götürülür. Layihəyə əsasən, Azərbaycan Respublikasında idxal olunan bütün xidmət növlərinin sıfır (0) dərəcə ilə ƏDV-yə cəlb edilməsi nəzərdə tutulur.

Pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan şəxslər ƏDV-dən azad olunan malların və ƏDV ödənilməklə alınan malların hər birinin uçotunu ayrı-ayrılıqda aparmalıdır

**«Sputnik.az»: Sərəncamda nağdsız ödənişlərin çərçivəsinin daha da genişləndirilməsi nəzərdə tutulur. Lakin biz şəhərdə POS-terminalların azalmasının şahidi oluruq. Bunun qarşısının alınması üçün hansı tədbirlər görülür?**

- Nağd ödənişlərin məhdudlaşdırılması və nağdsız ödənişlərin stimullaşdırılması sahəsində müəyyən tədbirlər nəzərdə tutulub. Görüləcək tədbirlər POS-terminalların artımına da öz təsirini göstərəcək. Nağdsız ödənişlərin həyata keçirilməsi ilə bağlı bir neçə təklif var. Beynəlxalq təcrübəyə uyğun olaraq, gün ərzində 1000 manatdan yuxarı əməliyyat yalnız nağdsız qaydada aparıla bilər. Hesab edirik ki, nağdsız əməliyyatların həyata keçirilməsinin stimullaşdırılması ƏDV və ya digər bir vergi növü üzrə güzəştlərin tətbiqi ilə həyata keçiriləcək. Əlbəttə, bu, təkcə Vergilər Nazirliyi ilə əlaqəli məsələ deyil. Məsələn, bankların xidmət haqqı məsələsi də danışıqlar vasitəsilə nizamlanmalıdır.




**Lider TV: Nümunəvi vergi ödəyiciləri hansı güzəştləri əldə edə biləcəklər?**

***İlkin Vəliyev:*** Vergilərini vaxtlı-vaxtında ödəyən nümunəvi vergi ödəyiciləri və intizamsız vergi ödəyiciləri müəyyən ediləcək və onların adları ictimaiyyətə açıqlanacaq. Dünya praktikasında belə bir əməletmə piramidası mövcuddur: könüllü vergi ödəyiciləri; vergi ödəmək istəyən, lakin müəyyən maarifləndirici tədbirlərə ehtiyacı olanlar; vergi ödəməkdən yayınanlar. Vergidən yayınan vergi ödəyiciləri risklərlə, vergini ödəmək istəyən, lakin müəyyən maarifləndirməyə ehtiyacı olanlar isə xidmət vasitəsilə müəyyən ediləcək.

Vaxtında bəyannamələrini təqdim edən, vaxtında dövlət büdcəsinə vergilərini ödəyən və eyni zamanda beynəlxalq meyarlara uyğun mühasibat işlərini aparan, öz daxili auditinə malik olanlar könüllü vergi ödəyiciləridir. Onlar nümunəvi vergi ödəyicisi kimi keçiriləcək səyyar vergi yoxlamalarından azad ediləcəklər. Nümunəvi vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığı sadələşdiriləcək və onlara ünvanlı xidmətlər göstəriləcək.

**«ASAN» radio: ASAN imza da vətəndaşların işini həqiqi mənada asanlaşdırmışdır, indi vergi ödənişlərini plastik kartlar vasitəsilə həyata keçirmək mümkündür. Lakin vətəndaşların bir hissəsinin bu haqda hələ də məlumatı yoxdur. Bu sahədə hansı maarifləndirici tədbirlər görülür?**

***Mahir Rəfiyev:*** Vergilər Nazirliyi tərəfindən hazırda 62 növ elektron xidmət həyata keçirilir və bu xidmətlərin artırılması nəzərdə tutulur. Vergi ödəyicilərinə xidmətlərin spektri genişləndiriləcək və bir sıra yeni elektron xidmətlərin tətbiqi həyata keçiriləcək. Hətta biz fiziki şəxslərin qeydiyyatını, fəaliyyətin dayandırılması və bərpa olunmasını da ASAN xidmət və «195» Çağrı Mərkəzi vasitəsilə aparılmasını nəzərdə tuturuq.

Sərəncamın əsas məqsədlərindən biri vergi ödəyicilərinin maarifləndirilməsi və könüllülük prinsipinə əməletmənin artırılmasıdır. Maarifləndirmə nisbətən geniş məfhumdur. Biz indiyədək KİV-in də yaxından iştirakı ilə bir çox tədbirlər keçirmişik. Müntəzəm olaraq xidmət mərkəzlərimizdə vergi ödəyiciləri ilə görüşlər təşkil edir, maarifləndirici söhbətlər aparır, xidmət kanalları - telefon, sms və poçt vasitəsilə vergi ödəyicilərini məlumatlandırırıq. «Dəyirmi masa»lar, «Vergi dostları» layihəsi çərçivəsində müxtəlif tədbirlər keçirilir. ATV kanalında «İqtisadi zona» verilişimiz yüksək reytinq qazanıb. Müəyyən məsələlərlə bağlı ictimai reklam çarxları hazırlanır. Vergi ödəyicilərini maarifləndirmək, vergi yenilikləri ilə yaxından tanış etmək üçün yaradılan «Bir pəncərə» saytımıza 2,5 milyon nəfər müraciət edib.

***İlkin Vəliyev:*** Sərəncama əsasən, xidmət kanalları sırasına «195» Çağrı Mərkəzində «Geriyə zəng» xidməti də əlavə olunacaq. «Geriyə zəng» həm qeydiyyatdan keçən, həm də riski olan vergi ödəyicilərini əhatə edən bir mexanizm olaraq, məlumatlandırmanı həyata keçirəcək.

«Tax free» iyun ayından tətbiq olunsa da, artıq 104.000 manata yaxın ƏDV əcnəbi vətəndaşlara qaytarılıb ki, bu da alış-veriş üzrə 2 milyon manatdan yuxarı dövriyyə deməkdir

**Davamı 3-cü səhifədə**

# İqtisadiyyatın müasir mərhələsi vergi orqanları qarşısında yeni vəzifələr qoyur

Əvvəli 2-ci səhifədə

**«Trend.az»: Kənd təsərrüfatı məhsullarının ticarət şəbəkələrində satışına ƏDV tətbiqində nə kimi dəyişikliklər gözlənilir?**

- Sərəncamda belə bir bənd mövcuddur ki, pərakəndə satışla məşğul olan vergi ödəyicilərinə ƏDV ticarət əlavəsindən hesablanacaq. Bu o deməkdir ki, əgər pərakəndə ticarət obyekti həmin məhsulu ƏDV-dən azad olan şəxsdən və ya ƏDV tətbiq etmək hüququ olmayan şəxsdən, sadələşdirilmiş vergi ödəyicilərindən əldə edəcəksə, qanunvericilikdə əvəzləşmə hüququ olmadığından məhsul satıldıqda ƏDV tam dəyərindən hesablanır. Yeni layihəyə görə isə həmin məhsula nə qədər ticarət əlavəsi qoyulacaqsa, həmin ticarət əlavəsindən 18% ƏDV hesablanıb dövlət büdcəsinə ödəniləcək. Təbii ki, burada ayrıca uçot olmalıdır, bu baxımdan vergi ödəyicilərinin üzərinə çox böyük məsuliyyət düşür. Çünki artıq hər bir məhsula görə həm ƏDV-dən azad olan, həm də ƏDV-yə cəlb olunan məhsulların ayrıca uçotu aparılmalıdır. Təklifdə vəziyyətdən sui-istifadə hallarının olmaması üçün uçot aparmayan şəxslərdə ƏDV tam həcmdə, yəni 18% deyil, məhsulun tam dəyərindən hesablanması nəzərdə tutulur.

***Şamil Ərəbov:*** ƏDV son istehlakçıdan alınan istehlak vergisidir. ƏDV-nin sahibkarın fəaliyyətinə o qədər də təsiri yoxdur. Vergilərin ƏDV ticarət əlavəsindən hesablanması son nəticədə qiymətlərin aşağı salınması ilə nəticələnə bilər. Qiymətlərin aşağı salınması da sahibkarın dövriyyəsinin, yəni əməliyyatlarının həcminin artması deməkdir ki, bu da mənfəətin artmasına müsbət təsir göstərəcək. Ona görə də belə nəzərdə tutulur ki, pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan şəxslər ƏDV-dən azad olunan malların və ƏDV ödənilməklə alınan malların hər birinin uçotunu ayrı-ayrılıqda aparmalıdır. Uçot aparmırsa və ya qarışıq aparırsa, ümumi dövriyyəsinə ƏDV hesablanmalıdır. Bütün hallarda bu, qiymətlərin aşağı düşməsi ilə nəticələnməlidir və pərakəndə ticarət təşkilatları tərəfindən qiymətlərə yenidən baxılmalıdır.

**«Fins.az» informasiya agentliyini maraqlandıran sual isə sabit vergilərlə nə kimi dəyişikliyin gözlənilməsi ilə bağlı idi.**

***İlkin Vəliyev:*** Bəzi fəaliyyətlər var ki, Vergilər Nazirliyi və ya vergi orqanları tərəfindən toplanan vergilər həmin fəaliyyətlər üçün çəkilən inzibati xərclərə bərabər olur. Buna görə də həmin fəaliyyət növləri ilə məşğul olan şəxslərdən sabit vergi tutulması barədə sərəncamda müəyyən müddəalar öz əksini tapıb. Burada mahiyyət ondan ibarətdir ki, istər repetitorluqla, istərsə də hər hansı müəyyən əmək tutumlu fəaliyyətlə məşğul olan şəxslər vergilərin ödənilməsi ilə bağlı şəhadətnamə aldıqdan sonra qanuni fəaliyyət göstərə bilsinlər. Bu məsələ ətrafında hazırda Vergilər Nazirliyində müzakirələr gedir. Fəaliyyətlər bölündükdən sonra regionlarda və şəhərlərdə gəlirlər müxtəlif olduğuna görə, həmin gəlirlərə mütənasib olaraq sabit vergi məbləğləri müəyyən ediləcəkdir. Gözlənilir ki, gələn ildən bu layihənin də tətbiqinə başlanılacaq.

Nümunəvi vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığı sadələşdiriləcək və onlara ünvanlı xidmətlər göstəriləcək

İstər rəqəmsal ticarətin vergiyə cəlb olunması, istər transfer qiymətləndirmənin aradan qaldırılması, istərsə də pərakəndə ticarətlə məşğul olan şəxslərdə ƏDV-nin ticarət əlavəsindən hesablanması vergi bazasının genişləndirilməsinə öz müsbət təsirini göstərəcək

**«Haqqın.az»: Vergilərin azaldılması yaxşıdır. Bəs büdcə necə dolacaq, vergi bazasının genişləndirilməsi hansı yollarla həyata keçiriləcək?**

- Təkliflər veriləndə, müzakirələr keçiriləndə bütün amillər nəzərə alınır, hesablamalar aparılır. Yəni vergi sahəsində aparılacaq islahatların istiqamətləri özündə yalnız güzəştlərin verilməsini əks etdirmir. Qeyd etdiyimiz kimi, istər rəqəmsal ticarətin vergiyə cəlb olunması, istər transfer qiymətləndirmənin aradan qaldırılması, istərsə də pərakəndə ticarətlə məşğul olan şəxslərdə ƏDV-nin ticarət əlavəsindən hesablanması vergi bazasının genişləndirilməsinə öz müsbət təsirini göstərəcək. Bir məsələni də qeyd edim ki, sərəncamda digər vacib məsələlər sırasında vergi ödəyicisinin hüquqlarının genişləndirilməsi, eləcə də könüllü açıqlama sisteminin tətbiqinin nəzərdə tutulması da var. Könüllü vergi açıqlaması vergi orqanı tərəfindən keçirilən vergi yoxlaması zamanı aşkar olunmamış səhvlərin vergi ödəyicisi tərəfindən könüllü olaraq bəyan edilməsini nəzərdə tutur. Bu isə vergi ödəyicisinə dəqiqləşdirilmiş bəyannamə verilməsi hüququnu verir ki, həmin bəyannamə ilə könüllü açıqlanmış vergi məbləğlərinə görə vergi ödəyicisinə faiz hesablanması və maliyyə sanksiyasının tətbiqi istisna ediləcək.

**Fəxriyyə İKRAMQIZI**

# «Tax free»nin tətbiqi ölkənin turizm üzrə rəqabət qabiliyyətini artırır



«2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»ndə nəzərdə tutulan dəyişikliklərdən biri də Azərbaycanı turistlər üçün cəlbedici ölkəyə çevirmək və bütövlükdə turizm sektorunu inkişaf etdirmək məqsədilə ölkə ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədi üçün nəzərdə tutulmayan mallara ödənilmiş ƏDV-nin qaytarılması («tax free») sisteminin tətbiqinin genişləndirilməsi ilə bağlıdır. Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin rəisi Nicat İmanovla müsahibə bu mövzuya həsr olunmuşdur

***- Nicat müəllim, əvvəlcə oxucularımıza «tax free» sistemi barədə bir qədər ətraflı məlumat verməyinizi istərdik...***

- «Tax free» sistemi ilk dəfə İsveçdə yaranıb, hazırda Avropa Birliyi və digər ölkələrdə tətbiq olunur. Bu xidmət bütün ölkələrdə yalnız xarici vətəndaşlar üçün nəzərdə tutulub. Adətən, turistlər hər hansı xarici ölkəyə gedərkən orada «tax free» sisteminin tətbiqinin şərtlərini də öyrənir və etdikləri alış-veriş məbləğindən neçə faizini geri alacaqlarını əvvəlcədən hesablayırlar. ƏDV-nin məbləği tətbiq olunduğu ölkələrə görə dəyişir...

Ölkəmizə xarici turistlərin marağının artırılması, turizm sektorunda son illər ərzində nail olunmuş sürətli inkişafın davamlılığının təmin edilməsi və rəqabət qabiliyyətinin möhkəmləndirilməsi üçün beynəlxalq təcrübədə xarici turistlərə münasibətdə geniş istifadə edilən «tax free» sisteminin bu ilin iyun ayından respublikamızda da tətbiqinə başlanılıb. Bu sistemə əsasən, ölkəmizdə xarici turistlər tərəfindən alınmış mala görə ödənilən ƏDV-nin məbləğinin onlar ölkəni tərk edərkən özlərinə qaytarılması təmin olunur. Alıcı aldığı malları Azərbaycan Respublikası ərazisindən apardıqda aldığı mallara dair e-VHF-ni öz pasportu ilə birlikdə gömrük sərhəd-buraxılış məntəqəsində gömrük orqanı əməkdaşına təqdim etməlidir. E-VHF-nin məlumatları gömrük orqanı tərəfindən vahid məlumat bazasında eyniləşdirildikdən sonra avtomatik risk qiymətləndirməsi aparılır. Qiymətləndirmənin nəticələri əsasında alıcının və ona məxsus malların gömrük nəzarətindən keçməli olub-olmadığı proqram təminatı vasitəsilə açıqlanır.

Alıcının və ona məxsus malların gömrük nəzarətindən keçməsi tələb edildiyi halda, alıcı həmin malları gömrük baxışının keçirilməsi məqsədilə gömrük orqanı əməkdaşlarına təqdim etməlidir. Gömrük orqanı əməkdaşları təqdim olunmuş mallarla vahid məlumat bazasına daxil edilmiş məlumatların uyğunluğunu yoxladıqdan sonra qaytarılacaq ƏDV-nin məbləği barədə alıcının təqdim etdiyi e-VHF-də təsdiq qeydi aparır, möhürlə təsdiqləyərək alıcıya təqdim edir və vahid məlumat bazasında e-VHF-ni təsdiqləməklə məlumatı real vaxt rejimində müvəkkil banka ötürür. Alıcı dövlət sərhədinin buraxılış məntəqəsindən keçdikdən sonra müvəkkil bank gömrük orqanı tərəfindən möhürlə təsdiq olunmuş e-VHF-yə əsasən qaytarılmalı olan ƏDV məbləğini alıcının istəyinə uyğun olaraq milli valyutada nağd ödəniş kimi və ya 10 iş günündən gec olmayaraq xarici və ya milli valyutada bank kartına və ya hesabına köçürmə qaydasında qaytarır. Azərbaycanda «tax free» bir elektron vergi hesab-fakturası üzrə malların dəyəri ƏDV ilə birlikdə 300 manatdan çox olduğu hallarda tətbiq edilir. ƏDV-nin alıcıya qaytarılması isə nağd ödəniş və ya bank kartına köçürmə yolu ilə həyata keçirilir. Alıcıya ödəniləcək ƏDV-nin məbləğindən operatorun göstərdiyi xidmətlərə görə 20 faiz həcmində xidmət haqqı və bank komissiya haqqı tutulur.

***- «Tax free» sisteminin tətbiqi qanunvericilikdə necə təsbit edilib?***

- Bu sistemin tətbiqi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli fərmanı ilə «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası» təsdiq edilib. Artıq Vergi Məcəlləsində də bu sistemin tətbiqini təmin etmək məqsədilə əlavə və dəyişikliklər aparılıb. Bunlarla yanaşı, bir sıra digər normativ hüquqi aktların da bu fərmana uyğunlaşdırılması ilə bağlı işlər aparılır.

***- Sistemin vahid məlumat bazasının operatoru Vergilər Nazirliyidir. Burada nazirliyin əsas fəaliyyəti nədən ibarətdir?***

- «Tax free» inzibatçılığı üzrə əsas məsul subyekt operatordur və qeyd etdiyiniz kimi, ölkəmizdə operator olaraq Vergilər Nazirliyi müəyyən edilib. Vergilər Nazirliyi malların satışının rəsmiləşdirilməsi və ƏDV-nin qaytarılması işlərini təşkil edir, proqram təminatının daim işlək vəziyyətdə saxlanılmasını və fasiləsiz işləməsini, «tax free» mərkəzi informasiya sisteminin yaradılmasını və idarə edilməsini təmin edir.

***- Ölkəmizdə yeni tətbiq olunan bu sistem hansı nəticələri verir?***

- Bu sistem ölkəyə xarici turistlərin cəlb edilməsini təşviq edir, habelə onların ölkə ərazisində mal almasını stimullaşdırır. «Tax free» sisteminin tətbiq olunması sərhəd məntəqələrindən alış-veriş edən turistlər üçün hava limanlarında, sərhəd-keçid məntəqələrində məbləğin müəyyən qisminin geri qaytarılmasına şərait yaradır. Bu isə turistləri xərcləmələrə təşviq edən mexanizmdir. Bu sistem ölkənin turizm üzrə rəqabət qabiliyyətini artırır, ölkəyə xarici valyuta gətirilməsini təmin edir, ölkədə pərakəndə ticarətdə rəqabəti artırmaqla satış dövriyyəsini genişləndirir, habelə turist yönümlü istehsalı stimullaşdırır. İstehsal mühitinin formalaşdırılması, rəqabətli məhsulların istehsalı və dünya bazarına çıxarılması, daha sonra ölkəyə valyuta axını əldə etmək iqtisadi baxımdan mühüm prosesdir. Bu baxımdan ölkəyə turist axınını təmin etməklə, turist xərcləmələrinin həcmini artırmaqla əlavə valyuta axınına nail olmaq mümkündür. Rəqəmlərə baxsaq görərik ki, Vergilər Nazirliyinin tətbiq etdiyi «tax free» sisteminə əsasən 45 min şəxsə 100 min manatdan artıq ƏDV qaytarılıb.

***- «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında Prezident sərəncamından irəli gələn məsələlərin icrası ilə bağlı «tax free» sistemində hansı yeniliklər olacaq?***

- Sərəncamın icrası ilə bağlı «tax free» sisteminin hava limanından başqa digər sərhəd buraxılış məntəqələrində də tətbiqi həyata keçiriləcək. Artıq bununla bağlı qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üçün qanun layihəsi hazırlanıb. Proqram təminatı və vahid elektron məlumat bazası yaradıldıqdan, onun vergi və digər aidiyyəti dövlət orqanlarının, habelə müvəkkil bankın (bankların) istifadəsində olan elektron informasiya sistemlərinə inteqrasiyası təmin edildikdən sonra bu sistemin bütün sərhəd-buraxılış məntəqələrində qurulması hissə-hissə həyata keçiriləcək.

***Müsahibəni hazırladı:***
**Aytən NƏBİYEVA**

# İnvestisiyalar iqtisadi inkişafın əsasını təşkil edir

Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi Azərbaycanın xarici iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Son 20 il ərzində 190 mlrd. ABŞ dollarından çox həcmdə cəlb olunmuş investisiyaların təxminən yarısını müxtəlif sahələrin inkişafına yönəldilmiş xarici investisiyalar təşkil edir. Xarici investorların Azərbaycanda fəallığını ölkədə cəlbedici investisiya mühitinin mövcudluğu ilə əsaslandırmaq olar.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ölkə iqtisadiyyatının prioritet sahələrinə, xüsusilə qeyri-neft sahəsinə xarici investorların cəlb olunması istiqamətində işlər aparır. Azərbaycanın regionda investisiyalar üçün ən cəlbedici məkan kimi təşviq edilməsi, xarici sahibkarlara respublikamızda biznesin qurulması və inkişaf etdirilməsi üzrə xidmətlərin göstərilməsi, ölkəmizin investisiya imkanlarının potensial xarici investorlara çatdırılması, investisiyaların cəlb edilməsi üzrə ən qabaqcıl dövlətlərin təcrübəsinin öyrənilməsi və bunun əsasında ölkəmizdə investisiya mühitinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması fondun fəaliyyətinin ümumi istiqamətlərini təşkil edir.

AZPROMO tərəfindən Azərbaycanda investisiya potensialı barədə geniş təşviqat və təbliğat kampaniyası aparılır. Bu sahədə görülən işlərdən biri də «İnvestisiya layihələri» kataloqunun hazırlanaraq hər il yenilənməsidir. Fondun mətbuat xidmətindən bildirildiyinə görə, kataloqun son yenilənmiş buraxılışında kənd təsərrüfatı, sənaye, alternativ və bərpa olunan enerji, turizm, İKT, tikinti və sair kimi ölkə iqtisadiyyatının prioritet sahələrini əhatə edən və xarici investorlar üçün maraqlı ola biləcək 65 investisiya layihəsi əksini tapıb. Kataloq AZPROMO tərəfindən keçirilən tədbirlər və ikitərəfli görüşlər zamanı xarici iş adamlarına təqdim olunur. Artıq potensial investorlar tərəfindən kataloqda yer almış layihələrlə bağlı AZPROMO-ya müraciətlər də daxil olur.

**FƏXRİYYƏ**



## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Daşınmaz əmlakın icarəsinə görə vergi öhdəlikləri

***Rezident hüquqi şəxs tərəfindən Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident hüquqi şəxsin mülkiyyətindəki Azərbaycan Respublikasında yerləşən daşınmaz əmlakın icarəsinə görə ödənilən məbləğə görə hansı vergi öhdəlikləri yaranır?***

Vergi Məcəlləsinin (VM) 124.1-ci maddəsinin müddəalarına əsasən daşınan və daşınmaz əmlak üçün icarə haqqından gəlir VM-in 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulur.

Rezident müəssisələrə və ya qeyri-rezidentlərin daimi nümayəndəliklərinə Azərbaycan Respublikasında ödənilmiş məbləğlər bu maddə üzrə vergitutma obyekti deyildir (VM, maddə 124.3).

VM-in 125.1.7-ci maddəsinə uyğun olaraq qeyri-rezidentin bu Məcəllənin 13.2.16-cı maddəsi ilə Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan icarə haqları və royalti şəklində əldə etdiyi gəlirindən ödəmə mənbəyində xərclər çıxılmadan VM-in 124-cü maddəsinin tələblərinə əsasən 14 faiz dərəcə ilə vergi tutulur.

İşlər (xidmətlər) bilavasitə daşınmaz əmlakla bağlıdırsa daşınmaz əmlakın olduğu yer ƏDV-nin məqsədləri üçün işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer sayılır (VM, maddə 168.1.1).

ƏDV məqsədləri üçün işi yerinə yetirən və ya xidmət göstərən şəxsin fəaliyyəti həyata keçirdiyi yer işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer sayılır (VM, maddə 168.1.6).

VM-in 169.1-ci maddəsində qeyd edilmişdir ki, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində VM-in 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə, VM-in XI fəslinin məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi VM-in 169-cu maddəsinə uyğun olaraq vergiyə cəlb olunur.

**Qeyd olunanlara əsasən:**

Daşınmaz əmlakın icarəyə verilməsinə görə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident hüquqi şəxsə rezident hüquqi şəxs tərəfindən ödənilən icarə haqqından ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulmaqla yanaşı, qeyri-rezidentə ödənilən icarə haqqı məbləğindən 18 faiz dərəcə ilə ƏDV hesablanaraq dövlət büdcəsinə ödənilməlidir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**Yanvar-iyul aylarında...**

- Xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala **4 milyard 923,1 milyon** manat vəsait yönəldilib.
- Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin **4 milyard 328,5 milyon** manatı (87,9 faizi) Böyük Britaniya, Türkiyə, Malayziya, İsveçrə, Rusiya, İran, ABŞ və Yaponiya sərmayədarlarına məxsus olub.
- Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin **68,5** faizini tikinti, yenidənqurma və genişləndirmə, **11,8** faizini əsaslı təmir, **3,9** faizini cari təmir, **15,8** faizini isə digər işlər təşkil edib.
- Ümumi inşaat işlərinin **88,1** faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetirib.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə (www.taxes.gov.az/www.taxes/faq/sual.html) və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

# 2016-cı ildə vergi islahatlarının perspektivləri



Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli sərəncamı ilə 2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiq edilməsi həm vergi orqanlarında, həm də işgüzar dairələrdə, vətəndaş cəmiyyəti qurumlarında, ümumilikdə ölkə ictimaiyyətində böyük maraq doğurmuşdur və bu sənədin müzakirəsində fəallıq müşahidə olunur. Ölkəmizdə audit, vergi və hüquq, konsaltinq və maliyyə məsləhəti sahəsində peşəkar xidmətlər göstərən «Deloitte Azərbaycan» şirkətinin vergi üzrə direktoru Emil Qarayevin «Trend» İnformasiya Agentliyi tərəfindən yayımlanmış məqaləsi də bu mühüm dövlət sənədinə fəal marağın əyani ifadəsidir. Onu da qeyd edək ki, Vergilər Nazirliyi ictimaiyyətin müxtəlif təbəqələri tərəfindən irəli sürülən mülahizələri məmnuniyyətlə qəbul edir, hər bir fikrə diqqətlə yanaşır.

Heç kimdə şübhə doğurmur ki, 2016-cı il Azərbaycanda şəffaflaşmaya yönəlmiş köklü iqtisadi islahatların, yeni bazar qaydalarının formalaşdığı bir il olaraq yadda qalacaqdır. Azərbaycan Respublikası Prezidentinin iqtisadi islahatlar üzrə köməkçisinin təyin olunması və bu sahədəki iqtisadi islahatların vahid mərkəzdən idarə olunması görülən tədbirlərin effektivliyi baxımından xüsusilə əhəmiyyətlidir.

Cari ilin əvvəlindən başlayaraq müxtəlif sahələrdə aparılan islahatların məntiqi davamı olaraq vergi orqanlarının, habelə vergi qanunvericiliyinin yeni bazar qaydalarına uyğunluğunun təmin edilməsi gözlənilən idi və belə də oldu. Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il sərəncamı ilə təsdiq edilmiş 2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri bu sahədə əhəmiyyətli və müsbət dəyişikliklər vəd edir. Sizə təqdim edilən məqalədə həyata keçirilməsi planlaşdırılan bu islahatları zəruri edən hallar və onların gözlənilən nəticələrinin təhlili aparılmışdır.

### Müasir vergi inzibatçılığının tətbiqi

Hesab etmək olar ki, bazar iştirakçılarının vergi ödəmək potensialının müəyyən edilməsi bütün prosesin başlanğıc nöqtəsidir. Hər bir il üçün dövlət büdcəsinin gəlir hissəsi formalaşdırılarkən burada nəzərdə tutulan vergi daxilolmaları mövcud iqtisadi reallıqlar əsasında formalaşdırılmalı, vergi ödəyiciləri tərəfindən əvvəlki ildə həyata keçirilmiş və potensial olaraq qaytarılmalı və ya əvəzləşdirilməli olan məbləğlər dəqiqliklə nəzərə alınmalıdır. Bu sahədə olan qeyri-dəqiqlik sonradan vergi orqanlarının qarşısına qoyulan yığım planlarının icrasına çətinlik törədir və son nəticədə həm sahibkarlıq subyektlərinin, həm də dövlət orqanlarının işində pozuntulara gətirib çıxarır.

Vergi inzibatçılığının vergi siyasətini həyata keçirən praktiki alət olmasını nəzərə alaraq bu sahədə ciddi islahatlar aparılacağını gözləmək olar. Sərəncamdan da aydın olur ki, qarşıda duran məqsəd vergi ödəyiciləri və vergi orqanları arasında təması minimuma endirmək, elektron audit kimi məsafədən nəzarət tədbirlərinə üstünlük verməkdir. Vergi yoxlaması əlavə vergi toplamaq üçün vasitə yox, vergidən yayınmanın qarşısını almaq üçün çəkindirici tədbir olmalıdır. İstər kameral, istərsə də səyyar vergi yoxlamalarının aparılma əsaslarında konkretlik yaradılmalı, yoxlamaların təyin edilməsi üçün konkret meyarlar müəyyən edilməli və yoxlamanın nəyə əsaslandığı barədə vergi ödəyicisinə məlumat verilməlidir. Aparılacaq islahatlar vergi ödəyiciləri tərəfindən uçotun tam və düzgün qurulmasını da zəruri edəcək. Dövlətin bu sahədə mövcud olan resurslarından qənaətlə istifadə edilməli və yoxlamalar mümkün qədər selektiv aparılaraq tez başa çatdırılmalıdır. Sərəncamdan görürük ki, bu sahədə mümkün qədər obyektiv yanaşma təmin etmək məqsədilə hökumət bir sıra təsirli tədbirlər görmək niyyətindədir. Buna vergi öhdəliklərinin məbləğinin əvvəldən vergi orqanları ilə razılaşdırılması (Advance tax ruling), «rəqəmsal iqtisadiyyatın» (digital economy) vergiyə cəlb edilməsi, vergidən yayınma hallarının qarşısını almaq məqsədilə ictimai məlumatlandırma (Whistleblow) və könüllü vergi açıqlaması (Voluntary tax disclosure) kimi mütərəqqi tədbirlər misal göstərilə bilər. Könüllü vergi açıqlaması sisteminin üstün cəhəti bazarda fəaliyyət göstərən əksər sahibkarlıq subyektlərinin buna maraqlı ola bilməsidir. ABŞ-da geniş tətbiq olunan bu proqram dövlət və sahibkarlıq subyekti arasında müqavilə bağlanmasını ehtiva edir və hər iki tərəf üçün fayda vəd edir. Yəni əvvəllər uçotdan gizlədilmiş gəlirlər və ya əmlak bəyan olunduqda dövlət üçün əlavə gəlir mənbəyi formalaşır. Bunun müqabilində isə dövlət tərəfindən tətbiq oluna biləcək maliyyə sanksiyaları, faizlər və s. tətbiq olunmur. ABŞ-ın bəzi ştatlarında könüllü vergi açıqlaması müqaviləsi bağlandığı zaman keçmişdə baş vermiş pozuntulara görə vergi ödəyicisi məsuliyyətə cəlb olunmur və gələcəkdə qanunvericiliyə tam əməl edəcəyi barədə öhdəlik götürür. Bu isə bir növ vergi amnistiyasını xatırladır. Təəssüf ki, Azərbaycanda hələ də kölgə iqtisadiyyatı böyük çəkiyə malikdir. 2016-cı ildən aparılan islahatların, əsasən, kölgə iqtisadiyyatının şəffaflaşdırılmasına yönəldiyini nəzərə alsaq, bu sistemin tətbiqinin vergi ödəyiciləri tərəfindən əvvəllər uçotdan gizlədilən və ya aşağı dəyərlə uçota alınan aktivlərin, habelə dövriyyə vəsaitlərinin şəffaflaşdırılmasında xüsusi əhəmiyyət kəsb edəcəyi şübhəsizdir.

> Vergiqoyma iqtisadiyyatı tənzimləyən əsas alətlərdən biri olduğu üçün bu sahədə aparılacaq islahatlar Azərbaycanın gələcək iqtisadi həyatına həlledici təsir göstərəcək

### Nağdsız iqtisadiyyata keçid

Nağd pul dövriyyəsinin məhdudlaşdırılması, habelə elektron qaimə kimi qabaqcıl sistemlərin tətbiqi də kölgə iqtisadiyyatının aradan qaldırılması və şəffaflığın təmin edilməsində əsas faktorlardan biri olacaqdır. İstər ticarət, istərsə də xidmət sektorunda böyük nağd pul dövriyyəsinin mövcudluğu, habelə avtomatlaşdırılmış informasiya sistemlərindən istifadə edilməməsi sahibkarlıq subyektlərinin işinə çətinlik törətməklə yanaşı, həm də dövlət tərəfindən nəzarət tədbirlərinə böyük resurs cəlb olunmasını tələb edir. Qeyd olunan qabaqcıl tədbirlərin tətbiqi yerli müəssisə və təşkilatlarda vəzifə saxtakarlıqlarının, mənimsəmə və dələduzluq hallarının qarşısının alınmasına da kömək edəcək.

### Kənd təsərrüfatı fəaliyyəti üçün güzəştlərin dəqiqləşdirilməsi

Sevindirici haldır ki, Sərəncam həmçinin Azərbaycan iqtisadiyyatının strateji sahələrindən biri olan kənd təsərrüfatı sahəsində mövcud olan problemli vergi məsələlərinin aradan qaldırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Məlum olduğu kimi, hazırda kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) şəxslər bu fəaliyyətləri üzrə gəlir vergisi, mənfəət vergisi, əlavə dəyər vergisi, əmlak vergisi, eləcə də sadələşdirilmiş vergidən azad olunmuşdur. Təəssüf ki, Azərbaycan Respublikasının qanunvericilik aktlarında «kənd təsərrüfatı məhsullarının istehsalı» və «kənd təsərrüfatı məhsullarının emalı» anlayışlarının olmaması qeyd olunan vergi güzəştinin tətbiqi dairəsi ilə bağlı praktiki çətinliyə gətirib çıxardır. Bu isə öz növbəsində aqrar sektorda fəaliyyət göstərən vergi ödəyicilərinin vergi öhdəliklərinin müəyyən edilməsində çətinliklər yaradır. Qeyd olunan anlayışların müəyyən olunması iqtisadiyyatın bu strateji sahəsinə böyük töhfə verəcək.

### Beynəlxalq kommersiya əməliyyatları və vergi münasibətləri

Uzun zaman diqqətdən kənarda qalan məsələlərdən biri də Azərbaycan vergi rezidentlərinin xarici ölkələrdə, habelə xarici ölkələr vasitəsilə apardıqları əməliyyatların vergiyə cəlb edilməsi ilə bağlıdır. Sərəncamda «ofşor» yursidiksiyaların vurğulanması güzəştli vergi tutulan ölkələrdə əldə edilən gəlirlərin vergiyə cəlb edilməsi məsələsinin, konkret olaraq Vergi Məcəlləsinin 128-ci maddəsinin tətbiqinin aktuallaşacağından xəbər verir. Bir çox dövlətlərdə olduğu kimi Azərbaycan Respublikasında da bu gəlirlərin müəyyən edilməsindəki çətinlik məlumatların əldə edilməsi imkanları ilə bağlıdır. Sərəncamdan aydın olur ki, Azərbaycan Respublikası vergiqoyma üzrə məlumat mübadiləsi sistemlərinə qoşulmaqla bağlı tədbirləri daha da genişləndirəcək və daha çox ölkə ilə analoji müqavilələr bağlayacaqdır. Bu cür məlumat mübadiləsi proqramları xüsusilə maliyyə institutlarından müştərilərin identifikasiyası üzrə daha ətraflı təhlil aparmağı tələb edir. Məlumat üçün qeyd edək ki, Azərbaycan və ABŞ arasında vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act - FATCA) tələblərinin həyata keçirilməsi barədə Saziş 5 noyabr 2015-ci il tarixdən qüvvədədir və illik əsasda qarşılıqlı şəkildə vergi rezidentlərinin bank və digər maliyyə institutlarında olan hesabları barədə məlumatların mübadiləsini nəzərdə tutur.

Sərəncamda beynəlxalq vergiqoymaya dair vurğulanan məsələlərdən biri də transfert qiymətləndirmə (Transfer pricing) konsepsiyasıdır. Transfert qiymətləndirmə əlaqəli şəxslər (nəzarət olunan əməliyyatlar üzrə) arasında təqdim edilən mal, iş və xidmətlərin qiymətlərinin müəyyən edilməsidir. Transfert qiymətləndirmə beynəlxalq şirkətlərin fəaliyyət göstərdikləri dövlətlər arasında vergiyə cəlb olunan mənfəətlərini bölüşdürmək üçün istifadə etdikləri mexanizm kimi istifadə olunur.

Müqavilə tərəflərinin müstəqilliyi və bərabərliyi prinsipi əsasında müəyyən olunmuş transfert qiymət satıcının qarşılıqlı asılı şəxsdən əldə etdiyi gəliri müstəqil tərəfdən əldə edə biləcəyi gəlir kimi nəzərdən keçirir. Transfert qiymətləndirmə korporativ vergidən yayınmanın (xüsusilə gəlirin vergi güzəşti olan yurisdiksiyalara ötürülməsi yolu ilə) qarşısının alınmasında geniş şəkildə istifadə olunur. Rusiya, Gürcüstan və regionun bəzi digər ölkələrində bununla bağlı artıq müsbət təcrübə mövcuddur və Azərbaycanda da müvafiq qanunvericiliyin qəbul edilməsi əlaqəli şəxslər arasında baş verən əməliyyatların vergiyə cəlb edilməsində subyektivlik hallarının aradan qaldırılmasına kömək edəcəkdir.

Hər bir ölkənin vergi nöqteyi-nəzərindən xarici investorlar üçün cəlbediciliyi həm də həmin dövlətin ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı imzaladığı müqavilələrdən və onların tətbiqi şərtlərindən asılıdır. Hazırda Azərbaycan müxtəlif ölkələrlə 50-dən artıq belə saziş imzalamışdır. Bu sazişlər Azərbaycan mənbəyindən gəlir əldə edən xarici hüquqi və fiziki şəxslərə müəyyən vergi güzəştlərinin verilməsini nəzərdə tutur. Lakin Azərbaycanda tətbiq olunan hazırkı inzibatçılıq qaydaları, dividend, faiz və royalti gəlirləri istisna olmaqla, vergi agenti (Azərbaycanda xarici şəxsə ödəniş edən rezident şəxs) tərəfindən güzəştli vergi dərəcələrinin əvvəlcədən tətbiqinə imkan vermir.

Hər hansı artıq ödənilmiş vergi məbləğinin geri qaytarılması kifayət qədər mürəkkəb prosesdir, xeyli vaxt və resurs tələb edir. Nəticədə, sazişlərdə nəzərdə tutulan bir çox güzəştlər təcrübədə tətbiq edilmir. Bu isə xarici investorları Azərbaycanı daha az cəlbedici investisiya mühiti olan yurisdiksiya kimi nəzərdən keçirməyə vadar edir. Buna görə də sərəncamda sazişlərin inzibatçılığı qaydalarının sadələşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi tələbi qoyulmuşdur.

### Rəqabətlilik və vergilərin diferensiallaşdırılması

Mövcud bazar iştirakçıları arasında ədalətli rəqabətə imkan yaradacaq mühitin formalaşdırılması da xüsusi əhəmiyyət kəsb edən məqamlardan biridir. Sərəncamda nəzərdə tutulan nəzarət-kassa aparatları tətbiq etmədən fəaliyyət göstərən fiziki şəxslərin vergi öhdəliklərinin aylıq sabit vergi formasında müəyyən edilməsi, diferensiallaşdırılmış ƏDV dərəcələri, topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarların müəyyən edilməsi tələbləri bu qəbildən olan tədbirlərdəndir.

Vergiqoyma iqtisadiyyatı tənzimləyən əsas alətlərdən biri olduğu üçün bu sahədə aparılacaq islahatların nə qədər müvəffəqiyyətlə başa çatdırılması Azərbaycanın gələcək iqtisadi həyatına həlledici təsirə malik olacaqdır. Hökumət tərəfindən Azərbaycanın iqtisadiyyatı üçün müəyyən olunmuş strateji hədəflərə əhəmiyyətli dərəcədə sahibkarlıq fəaliyyəti üçün əlverişli vergi mühitinin formalaşdırılması sayəsində nail olmaq mümkün olacaqdır. Buna görə də aparılacaq islahatlar iqtisadiyyatın maksimum şəffaflaşdırılmasına xidmət etməli və Azərbaycan Respublikasının investisiya mühitini inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmalıdır.

**Emil QARAYEV**

# Regionlarda vergi sahəsində aparılacaq islahatlarla bağlı görüşlər keçirilib

Prezident İlham Əliyevin avqustun 4-də imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamında Vergilər Nazirliyi qarşısında vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin üç ay müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək vəzifəsi qoyulub. Sərəncamının icrası ilə əlaqədar Vergilər Nazirliyi ölkənin tanınmış iqtisadçı alimləri, ekspertləri, sahibkarlar və ictimaiyyətin nümayəndələri ilə «dəyirmi masa»lar və görüşlər təşkil edərək geniş müzakirələr aparır, onların rəy və təkliflərini öyrənir.





Avqustun 10-dan 12-dək Hacıqabul, Lənkəran, Gəncə, Şəmkir, Quba, Sumqayıt şəhər və rayonlarında vergi ödəyiciləri ilə açıq dialoq şəratində keçirilən görüşlərdə vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi istiqamətində əldə olunmuş nailiyyətlər, ödəyicilərə göstərilən xidmətlərin çeşidinin və keyfiyyətinin artırılması yolları, 2016-cı ildə vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi istiqamətində görüləcək işlər barədə ətraflı məlumatlar verilib, əhalinin müxtəlif təbəqələrini təmsil edən yerli sakinlərlə geniş müzakirələr aparılıb. Tədbirdə vergilər nazirinin müşaviri Ələkbər Məmmədov, Vergi ödəyicilərinə xidmət Baş İdarəsi rəisinin 1-ci müavini Elçin Məmmədov, Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Əli Həsənov, nazirliyin Ərazi vergi orqanları ilə iş üzrə Baş İdarəsinin şöbə rəisi Altay Rəhimov, aidiyyəti ƏVİ-nin rəhbərliyi, vergi ödəyiciləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

### Yeni dövr vergi sistemində islahatları zəruri edir

Tədbirdə çıxış edən vergilər nazirinin müşaviri Ələkbər Məmmədov bildirib ki, müasir dövrün iqtisadi tələbləri vergi sisteminin bir çox istiqamətlərinə yeni yanaşmanı zəruri edir. Ötən illərdə vergi dərəcələrinə dəyişikliklər edilsə də, son 10 ildə bəzi vergi növləri dəyişməz olaraq qalır. Məsələn, mənfəət vergisi müxtəlif illər üzrə 35 faizdən 20 faizə qədər aşağı salınıb. 2001-ci ildən ƏDV 18 faizlik dərəcə ilə tətbiq edilir. Müasir iqtisadi şəraitə, baş verən dəyişikliklərə və sahibkarlığın stimullaşdırılması ilə bağlı həyata keçirilən siyasətə uyğun olaraq, bəzi vergi dərəcələrinin dəyişdirilməsi, xüsusilə də ƏDV-nin diferensiallaşdırılması labüdlüyü yaranıb. İqtisadiyyatın inkişafının yeni dövrü vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsini zəruri edir. Dövlət başçısının sərəncamına uyğun olaraq təsdiq olunmuş «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri» bu reallığı əks etdirir. İslahatlar əsas məzmun etibarilə vergi dərəcələrinin optimallaşdırılması və vergi yükünün azaldılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığın stimullaşdırılması, vergi sisteminin beynəlxalq tələblərə tam uyğunlaşdırılması və vergitutma bazasının genişləndirilməsinə xidmət edir.

Vergilər nazirinin müşaviri kiçik və orta sahibkarlıq subyektlərinin daha çox marağına səbəb olan vergi yükünün optimallaşdırılması və ƏDV-nin diferensiallaşdırılması məsələsinə aydınlıq gətirərək fəaliyyət sahələrinə uyğun olaraq fərqli ƏDV-nin tətbiq olunacağını, topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarların müəyyən ediləcəyini, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək məqsədilə ƏDV-nin ticarət əlavəsinə əsasən hesablanacağını bildirib. Hazırda kənd təsərrüfatı məhsullarının istehsalçılarına vergi güzəşti tətbiq olunduğundan emal sənayesi, kənd təsərrüfatına aidiyyəti olmayanlar da özlərini həmin qrupun vergi ödəyiciləri kimi təqdim edir və vergidən yayınırlar. Ona görə də həmin sahədə vergi güzəştlərinin əhatə dairəsini dəqiq müəyyənləşdirmək məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalı ilə emalı arasındakı sərhədlər dəqiq müəyyən ediləcək. İnzibatçılığın yüngülləşdirilməsi məqsədilə vergi orqanları tərəfindən keçirilən vergi yoxlamalarının, xüsusilə kameral vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılacağı qeyd edilib. Vergi ödəyicilərinin inzibati xərclərini azaltmaq məqsədilə verilən hesabatların sadələşdirilməsi ilə elektron qaydada vahid mərkəzdən paylanması üçün beynəlxalq təcrübədə geniş tətbiq olunan «Vahid hesabat standartı» hazırlanacaq.

### Aylıq sabit vergi ödəyiciləri kimlər olacaq?

Qeyd olunub ki, islahatların əsas istiqamətlərindən biri şəffaflığı artırmaq, maliyyə intizamını gücləndirmək və vergitutma bazasını genişləndirmək məqsədilə nağdsız əməliyyatların stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılmasıdır. Bu məsələ ilə bağlı müvafiq qurumlarla müzakirələr davam edir və tərəflər dinlənildikdən sonra təkliflər nəzərə alınmaqla yeni mexanizm hazırlanacaq. Şəffaflığı artırmaq və vergitutma bazasını genişləndirmək üçün beynəlxalq təcrübədə geniş tətbiq olunan «rəqəmsal iqtisadiyyatın» (elektron ticarət, e-pul) vergiyə cəlb edilməsi, vergi ödəyiciləri tərəfindən aparılan əməliyyatlarda elektron qaimə-faktura sisteminin tətbiqi də əsas hədəflərdəndir. Nəzarət-kassa aparatlarının tətbiq edilməsi mümkün olmayan nağd pul hesablaşmalarının aparıldığı sahələrdə: məsələn, dərzi, ev qulluqçusu, repetitor, bağban və s. fəaliyyətlə məşğul olan fiziki şəxslər üçün onların gəlirlərinə müvafiq aylıq sabit vergi forması müəyyən ediləcək.

Vergi ödəyicilərinin vergi risklərini minimuma endirmək və vergidən yayınma hallarının qarşısını almaq məqsədilə beynəlxalq təcrübədə geniş tətbiq olunan «Könüllü vergi açıqlaması» sisteminin tətbiqi, nümunəvi vergi ödəyicisi üçün meyarların müəyyən edilməsi nəzərdə tutulur. Bəzi ölkələrdə vergi ödəyicilərinə güzəştlər (tibbi xidmətlər, sığorta, nəqliyyat və s.) tətbiq olunduğundan Azərbaycanda bu təcrübənin istifadəsi istisna olunmur. Eyni zamanda, intizamsız vergi ödəyiciləri ilə bağlı addımlar atılacaq. Onlar barədə məlumatlar Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdiriləcək.

Həyata keçiriləcək islahatlar vergi sisteminin beynəlxalq təcrübəyə tam uyğunlaşması, vergi yükünün ciddi şəkildə azalması, vergi nəzarətinin sadələşdirilməsi, pərakəndə ticarətdə çalışanların hər fəaliyyət növü üzrə gəlirlərinin stimullaşdırılması, ölkədə nağdsız hesablaşmaların genişlənməsi kimi mütərəqqi addımlara səbəb olacaq.

### Vergi ödəyiciləri üçün yeni xidmətlər

Vergi ödəyicilərinə xidmət Baş İdarəsi rəisinin 1-ci müavini Elçin Məmmədov diqqəti vergi ödəyicilərinə göstərilən xidmətlərə, onların məlumatlandırılması sahəsində görülmüş işlərə cəlb edib. Bildirilib ki, vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin əsas məqsədi vergi orqanı ilə sahibkar arasında canlı təmas formalarını məhdudlaşdırmaq və müasir informasiya texnologiyalarından istifadə etməklə xidmətlərin elektron formada tətbiqinin genişləndirilməsinə nail olmaqdır. Ötən dövr ərzində bu sahədə mühüm nailiyyətlər əldə olunub. Hazırda Vergilər Nazirliyi tərəfindən 62 elektron xidmət göstərilir. E-xidmətlər vergi inzibatçılığının bütün mərhələlərini əhatə edir. Vergilər Nazirliyi tərəfindən vergi orqanı olmayan şəhər və rayonlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinin də e-xidmətlər sahəsində sahibkarların daha çox üz tutduğu məkana çevrildiyini deyən E.Məmmədov hər il müraciətlərin sayının artdığını, təkcə 2015-ci il ərzində bu mərkəzlərə 390 minədək vergi ödəyicisinin müraciət etdiyini diqqətə çatdırıb. Bu, regionlarda sahibkarlara göstərilən xidmətlərin maksimum səviyyədə yerinə yetirilməsi deməkdir.

**Vergilər Nazirliyi tərəfindən 62 elektron xidmət göstərilir və elektron xidmətlər Azərbaycanda vergi inzibatçılığının bütün mərhələlərini əhatə edir**

Vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi sahəsində görülən işlərlə bağlı vurğulanıb ki, Vergilər Nazirliyinin internet portalı və sosial şəbəkələrdəki səhifələri bu istiqamətdə dolğun informasiya bazası hesab edilir. Hazırda vergi ödəyiciləri nazirliyin internet səhifəsindən istənilən sahəyə dair məlumat əldə edə, onlayn müraciət etməklə bütün suallara cavab tapa bilirlər.

2016-cı ildə vergi sahəsində aparılacaq islahatlar çərçivəsində vergi ödəyicilərinə göstərilən e-xidmətlərin istiqamətləri barədə məlumat verən E. Məmmədov vergi ödəyiciləri ilə vergi orqanları arasında əməkdaşlıq münasibətlərinin daha təkmil müstəviyə gətirilməsi üçün onlar arasında birbaşa təmasın minimuma endirilməsi məqsədilə elektron auditin tətbiq dairəsinin genişləndiriləcəyini, vergi bəyannamələrinin formalarının təkmilləşdiriləcəyini, göstərilən xidmətlərin daha da optimallaşdırılması üçün nazirliyin Çağrı Mərkəzində beynəlxalq təcrübədə tətbiq olunan «geriyə - müştəriyə zəng» xidməti funksiyalarının tətbiq olunacağını bildirib. Mərkəz vasitəsilə fiziki şəxslərin qeydiyyatı, şəhadətnamə dublikatının alınması, ASAN imzanın dəyişdirilməsi, fəaliyyətin dayandırılması və ya bərpası kimi xidmətlər göstərilməsi mümkün olacaq. İctimai məlumatlandırma mexanizminin hazırlanması, vergi ödəyicilərinin fəaliyyətini səmərəli təşkil etmək və inzibati xərclərini azaltmaq məqsədilə dövlət orqanlarına verilən hesabatların sadələşdirilməklə elektron qaydada vahid mərkəzdən paylanması üçün beynəlxalq təcrübədə geniş tətbiq olunan «Vahid hesabat standartı» sisteminin tətbiq olunması da qarşıdakı dövr üçün nəzərdə tutulan əsas hədəflərdəndir. Həyata keçiriləcək tədbirlər vergi ödəyicilərinə göstərilən xidmətlərin təkmilləşdirilməsinə və səmərəliliyin artırılmasına, məlumatların təhlili mexanizmlərinin yaradılmasına səbəb olacaq.

### Sahibkarlar nə istəyirlər?

Qeyd etdiyimiz kimi, regionlarda keçirilən silsilə görüşlərin əsas məqsədi vergi ödəyicilərinin məlumatlandırılması ilə yanaşı, həm də onların fikirlərinin, rəy və təkliflərinin öyrənilməsi, həlli yetişmiş aktual məsələlərin müzakirə edilməsi idi. Görüşlərdə iştirak və çıxış edən vergi ödəyicilərinin fikir və təklifləri əsasən inzibatçılığın təkmilləşdirilməsi, sahibkarlığa dəstək məqsədilə bəzi vergi növlərinin dərəcələrinə yenidən baxılması və vergi yükünün aşağı salınması, elektron xidmətlərin daha da asanlaşdırılması və sadələşdirilməsi ilə bağlı oldu.

Hacıqabul rayonundan olan Sahibkar Malik Əsədov bəyannamə formalarının sadələşdirilməsini və bəyannamələrin təqdimolunma formalarının təkmilləşdirilməsini təklif etdi. Onun rəyinə əsasən, ASAN imza mütərəqqi addım kimi böyük əhəmiyyət daşısa da, bu sistemin də sadələşdirilməsi vacibdir.

Hacıqabulda yaşayan digər vergi ödəyicisi Rəhman Qasımov bəzi hallarda vergi hesablanması zamanı mənfəət vergisi və ƏDV üzrə uyğunsuzluqların olduğunu, bunun aradan qaldırılmasının zəruriliyinə diqqət çəkdi.

Lənkəranda ticarət-iaşə sahəsi üzrə fəaliyyət göstərən sahibkar Razim Məmmədov nağdsız ödənişlər aparılarkən bəzi ticarət və iaşə obyektlərinin hesabladığı faizlərin yüksək olmasından narahatlığını ifadə edərək, bu sahədə güzəştlərin olmasını təklif etdi. Bir sıra obyektlərdə POS-terminalların quraşdırılmasına baxmayaraq onların işləmədiyini və nəticədə regionlarda nağdsız ödənişlərin səviyyəsinin aşağı düşdüyünü, bu sahədə də lazımi tədbirlər görülməsini vacib saydığını bildirdi.

Lənkəranlı digər vergi ödəyicisi Aqil Cəfərov əməkhaqqından tutulan gəlir vergisinin hesablanmasında bəzi uyğunsuzluqların yarandığını, bir sıra müəssisələrdə işəgötürənin ay ərzində muzdlu əməyə görə işçiyə fərqli pul ödədiyini, amma aylıq gəlir vergisinin hər ay eyni qaydada tutulmasından narazı olduğunu bildirdi və bu problemin aradan qaldırılmasını xahiş etdi.

Gəncə şəhərində yaşayan vergi ödəyicisi Ramidə Məmmədova e-xidmətlərin regionlarda genişləndirilməsini, maarifləndirmə işinin daha da artırılmasını arzu etdiyini diqqətə çatdırdı və qeyd etdi ki, vergi mədəniyyətinin yüksəldilməsi məqsədilə bütün orta məktəblərdə fakültətiv dərslərin aparılmasına ehtiyac var.

Şəmkirli sahibkar Vüsal Əsgərov turizm sektorunu stimullaşdırmaq üçün ƏDV-nin 9 faizlə tətbiq olunmasını təklif etdi.

Gəncə şəhərində fəaliyyət göstərən sahibkar Arif Həsənov çörək satışı ilə digər mallar, məsələn, tütün və alkoqollu içkilərin satışı zamanı ƏDV-nin fərqləndirilməsini, tütün məhsulları və spirtli içkilərə daha yuxarı faizlə ƏDV tətbiq olunmasını təklif etdi.

Sumqayıtlı vergi ödəyicisi Sevinc Mustafayeva dəyişikliklər qəbul edildikdən sonra yeni redaksiyada vergi dərsliklərinin nəşr olunması, islahatların üstünlükləri barədə məktəblərdə tədrisin təşkilinin vacibliyini bildirdi...

**Elbrus CƏFƏRLİ**

## «AmCham» vergi islahatlarını dəstəkləyir

Azərbaycanda Amerika Ticarət Palatasının («AmCham») icraçı direktoru Natəvan Məmmədova AZƏRTAC-a açıqlamasında qanunvericilikdə ediləcək dəyişiklikləri yüksək qiymətləndirərək deyib: «Palatamız tərəfindən hökumətə vergi inzibatçılığının təkmilləşdirilməsi və ölkədə biznes mühitinin yaxşılaşdırılmasına dair cari ilin əvvəlində təqdim edilən təkliflərin əksəriyyəti Prezident İlham Əliyevin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamında öz əksini tapıb».

«AmCham» hesab edir ki, digər mühüm məsələlərlə yanaşı, sərəncamda vergi inzibatçılığı prosedurlarının yüngülləşdirilməsi və vergi yükünün azaldılması, «vergi öhdəliklərinin hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılması» («Advance tax ruling») qaydasının müəyyən edilməsi, kameral vergi yoxlamalarının vergi bəyannamələri təqdim edildikdən sonra növbəti 30 gün müddətində həyata keçirilməsi və bu müddət başa çatdıqda həmin vergi öhdəliklərinin hüquqi bəyannamələr üzrə kameral vergi yoxlamalarının qadağan olunması, «Könüllü vergi açıqlaması» («Voluntary tax disclosure») sisteminin tətbiqi və təşviqi mexanizminin hazırlanması, Azərbaycan ilə digər dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq sazişlərin inzibatçılığı qaydalarının sadələşdirilməsi kimi qeyd edilmiş müddəalar olduqca vacibdir və ölkədə biznes mühitinin daha da yaxşılaşmasına xidmət edəcək.

«AmCham» və palataya üzv şirkətlər ölkə hökumətinin 2016-cı ildə apardığı islahatlardan ilhamlanaraq sözügedən sərəncamda nəzərdə tutulan tapşırıqların icrası üçün malik olduğu bütün bilik və təcrübələrini təmin etməklə əməkdaşlığa hazırdır.

Qeyd edək ki, Azərbaycanda «AmCham» üzv şirkətlərin biznes maraqlarının inkişaf etdirilməsi, onlara lazımi xidmətlərin göstərilməsi və Azərbaycanda biznes mühitinin yaxşılaşması məqsədilə 1996-cı ildən fəaliyyət göstərir.

# Nağdsız ödənişlərin kütləvi yayılmasında iki əsas əngəl

**Yazı Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda müsabiqəsində mükafata layiq görülüb**

Ramiz Cürənov
APA

Azərbaycanda nağdsız ödənişlərlə bağlı atılan son ciddi addımlardan biri bu ilin yanvar ayından qüvvəyə minməli olan «Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi qaydaları» idi. Həmin qaydalar aksiz markası ilə markalanmalı olan malların (tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla) satılması və satış məqsədilə alınması zamanı həmin malların dəyərinin nağd qaydada ödənilməsinə yol verilməməsini nəzərdə tuturdu. Aksiz markaları ilə markalanmalı olan malların siyahısına içməli spirt, spirtli içkilərin bütün növləri, pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilər və tütün məmulatları daxildir. Bu tələblərdən hər hansı birini pozan şəxs İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyacaqdı. Ancaq bu addım sahibkarlıq subyektlərinin və cəmiyyətin prosesə tam hazır olmaması səbəbindən ajiotaja yol açdı və dövlət başçısının tapşırığı ilə qaydaların tətbiqi təxirə salındı. Bununla belə, nağdsız ödənişlərin cəmiyyətdə geniş yayılmasının vacib olduğunu bu gün hər kəs etiraf edir. Bəs bu sahədə hansı həlli vacib problemlər var?

## Sayı azalan POS-terminal və bankomatlarımız

Real mənzərəni təsəvvür etmək üçün nağdsız ödənişlər sahəsində əsas vasitələr olan POS-terminallar və bankomatların statistikası önəmlidir. POS-terminal kart vasitəsilə malların, iş və xidmətlərin dəyərinin ödənilməsi, valyuta mübadiləsi əməliyyatlarının aparılması, habelə nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıqdır. Bankomat isə bank kartlarından və istifadəçi kodlarından (PİN) istifadə edərək kart hesabından nağd pul vəsaitləri çıxarmağa, hesab barədə məlumat almağa, kommunal və digər xidmətlərin haqqını ödəmək üçün nağdsız hesablaşmalar aparmağa imkan verən aparatdır. Mərkəzi Bankın statistikasına nəzər yetirsək, 2006-cı ildə Azərbaycanda POS-terminalların sayı 2070 ədəd olub, bu ilin aprel ayına olan statistikaya əsasən isə POS-terminalların sayı 7396 ədəddir. Ancaq ciddi narahatlıq doğuran məqam odur ki, keçən ilin dekabr ayından başlayaraq POS-terminalların sayında sürətlə azalma tendensiyası müşahidə olunur. 2015-ci ilin dekabrında Azərbaycanda POS-terminalların sayı 80.301 ədədə çatmışdısa, bu ilin yanvar ayında istifadə edilən POS-terminalların sayı 78.452 ədəd, fevralda 77.250 ədəd, martda 75.563 ədəd, apreldə 73.960 ədəd olub. Yəni 4 ay ərzində istifadə edilən POS-terminalların sayı 6 min ədəddən çox azalıb. Aprel ayının statistikasına əsasən, pərakəndə ticarətdə 72.676 POS-terminal istifadə edilir ki, bunun da əksəriyyəti - 41.973 ədədi Bakının payına düşür.

Azərbaycanda bankomatların sayında ən yüksək göstərici 2015-ci ilin noyabrında qeydə alınıb. Həmin vaxt ölkədə istifadə edilən bankomatların sayı 2711 ədəd olub. O vaxtdan başlayaraq bankomatların da sayı azalıb və aprel ayının statistikasına əsasən, 1412-i Bakıda olmaqla, ölkə üzrə 2553 bankomat istifadədə olub.

Devalvasiya, bəzi bankların bağlanması fonunda POS-terminalların və bankomatların sayında azalma tendensiyasının müşahidə olunması ilk baxışda təbii görünsə də, bu gün dünyada nağdsız ödənişlərin sürətlə artması və Azərbaycan hökumətinin nağdsız ödənişlərin artmasını təşviq etməyə çalışması fonunda ortaya ciddi suallar çıxır. Deməli, Azərbaycanda nağdsız ödənişlərin geniş yayıması önündə daha ciddi əngəllər var.

## İnzibati və təşviqedici metodların rolu

İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri Vüqar Bayramov deyir ki, Azərbaycan dövləti nağdsız ödənişlərin həcminin artmasında maraqlıdır. Çünki nağdsız ödənişlər artarsa, bu, dövlətə maliyyə vəsaitlərinin hərəkətini izləməyə imkan verir: «Nağdsız ödənişlər vergidən yayınmanın qarşısının alınması üçün də olduqca vacibdir. Azərbaycanda plastik kartların sayının çox olmasına baxmayaraq, təəssüf ki, biznesdə və insanlar arasında nağdsız ödənişlərin həcmi yüksək deyil. Bəzi sahibkarlar vergidən yayınmaqda maraqlıdırlar onlar nağd ödənişlərə üstünlük verirlər».

İqtisadçı nağdsız ödənişlərlə bağlı təşviqedici, eyni zamanda inzibati metodların tətbiqinin tərəfdarı olduğunu bildirir: «İnkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da nağd ödənişlərə limitlərin müəyyənləşdirilməsinin tərəfdarıyıq. Təklif edirik ki, alınan malın, yaxud bir alqı-satqının dəyəri 500 manatdan çox olduda yalnız nağdsız ödənişlə həyata keçirilsin. Bu, imkan verəcək ki, nağd satış məhdudlaşdırıldığı üçün həm şirkətlər POS-terminallardan istifadə etməyə məcbur olsunlar, həm də vətəndaşların plastik kartlara marağı artsın».

İqtisadçı ekspert Samir Əliyev də məhdudlaşdırıcı tədbirlərə əl atılmasının tərəfdarıdır. O, nağdsız ödənişlərin təşviqi üçün bonus sisteminin geniş tətbiqinin ölkədə nağdsız ödənişlərin artmasına əhəmiyyətli təsir göstərəcəyi qənaətindədir: «Geniş yayılmasa da, Azərbaycanda da bəzi ticarət obyektlərində bonus sistemi var. Müştəri alğı-satqı apardıqca, kartında bonus yığılır. Nə qədər çox alğı-satqı aparılsa, o qədər çox bonus yığılır və sonradan pul şəklində qaytarılır. Bu, əhalini nağdsız ödənişlərə təşviq etmək üçün stimullaşdırıcı tədbirdir».

## İnfrastruktur

V. Bayramov bunlarla yanaşı, inzibati metod kimi POS-terminallardan istifadəyə nəzarətin gücləndirilməsinə, qanunvericilikdəki boşluqların aradan qaldırılmasına ehtiyac olduğunu nəzərə çatdırır: «Çünki bəzi hallarda vətəndaş plastik kartdan istifadə etmək istəsə də, mağaza, kafe, restoran plastik kartı qəbul etmir ki, POS-terminal işləmir. Belə hallar üçün cəza və cərimələrin artırılmasına ehtiyac var. Bu, həm də müştərinin istehlakçı hüquqlarının pozulması deməkdir. Amma qanunvericilikdə hətta POS-terminaldan istifadə etməyən sahibkarlar və xidmət obyektləri üçün konkret cəzalar və cərimələr nəzərdə tutulmayıb. İstinasız olaraq bütün biznes obyektlərində POS-terminalların quraşdırılması və istifadəyə nəzarətin gücləndirilməsi vacibdir».

İqtisadçı S. Əliyevin sözlərinə görə, bu gün hətta Bakıda da bütün mağazalarda POS-terminallar yoxdur. Bakıdan kənarda isə bu, ümumiyyətlə, problemlidir: «Ona görə də Azərbaycanda kart əməliyyatlarının 90 faizi nağdlaşdırmadan ibarətdir. Yəni hesaba pul gələn kimi insanlar bankomata üz tutur, pulu kart vasitəsilə nağdlaşdırırlar».

Yeri gəlmişkən, alkoqollu içkilərin nağdsız satışının təxirə salınmasında da infrastruktur probleminin əhəmiyyətli rol oynadığı şəksizdir. V. Bayramov deyir ki, vətəndaşların, xüsusən spirtli içkilərdən istifadə edən vətəndaşların çoxunun plastik kartları yoxdur və bu da islahatların həyata keçirilməsinə imkan vermədi: «Bu prosesi ilk növbədə topdansatışda başlamaq lazımdır. Əgər topdansatışda nağd ödənişlər məhdudlaşdırılarsa, gələcəkdə artıq bunun pərakəndə satışa tətbiqi də mümkündür. Amma bütün hallarda təklif edirik ki, konkret əmtəələrə görə deyil, məbləğə görə, yəni 500 manatdan artıq nağd hesablaşmalar üçün qadağalar müəyyənləşdirilsin».

## Əsas məsələlər

Plastik kart istifadəçilərinin şikayətləri göstərir ki, nağdsız ödənişlərlə bağlı təklif edilən inzibati və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsindən həlli vacib daha ciddi problemlər var. Məsələn, bu gün plastik kart istifadəçiləri hər hansı böyük supermarketdə alış-veriş edirsə, həmin supermarketdə qoyulan POS-terminal başqa bir banka məxsusdursa, plastik kartdan alış-verişə görə əlavə faiz tutulur. V. Bayramov bunun əslində dünya praktikasına zidd və qeyri-ciddi hal olduğunu vurğulayır: «Banklar razılaşdırmalıdır ki, POS-terminallardan istifadə zamanı bir bank digər bankın plastik kartından faiz tutmayacaq».

S. Əliyev nəzərə çatdırır ki, Azərbaycanda hazırda 3 prosessinq şirkəti - «AzəriKart», «MilliKart», «KapitalKart» var. Bunların hər birinin bir neçə bank müştərisi var: «Azərbaycanda bir prosessinq şirkətinə daxil olan kartdan başqa prosessinq şirkətinə daxil olan bankın bankomatında, yaxud POS-terminalında istifadə etdikdə, bu zaman əlavə vəsait çıxılır. Nağdsız ödənişləri stimullaşdırmaq üçün prosessinq şirkətləri arasında vahid tarif olmalıdır. Maliyyə Bazarlarına Nəzarət Palatası, Vergilər Nazirliyi və Mərkəzi Bank bu məsələyə birgə diqqət yetirməli və vahid tarif məsələsinə keçid təmin edilməlidir».

Azərbaycanda nağdsız ödənişlər sahəsində ciddi problem tək bundan ibarət deyil, POS-terminallarla əlaqədar xidmət haqları ölkəmizdə həm sahibkarların, həm də müştərilərin POS-terminallardan, plastik kartlardan istifadəyə səmərəsiz bir vasitə kimi baxmasını şərtləndirməkdədir. S. Əliyev deyir ki, bu gün Azərbaycanda ticarət obyektlərində 6 faiz sadələşdirilmiş vergi tətbiq olunur. Əgər ticarət obyektində nağdsız ödəniş əməliyyatı aparılarsa, bu zaman sahibkarlar ticarət obyektini POS-terminallarla təmin edən banka 0,5-1 faiz arasında xidmət haqqı ödəyir: «Sahibkar 6 faiz sadələşdirilmiş vergini, üstəlik 1 faizə qədər də ticarət obyektini POS-terminalla təmin edən banka xidmət haqqı verməlidir. Bununla xərclər 7 faizə gəlib çatır. Belə olan halda heç bir sahibkar nağdsız şəkildə satış həyata keçirməyə maraqlı olmayacaq. Bunu stimullaşdırmaq üçün ən azı nağd dövriyyə ilə müqayisədə nağdsız ödənişə vergi güzəşti tətbiq olunmalıdır. Tutaq ki, ticarət obyektlərində sadələşdirilmiş vergi 6 faizdirsə, nağdsız ödənişdə 3-4 faiz vergi tətbiq oluna bilər. Digər tərəfdən, əgər bu gün müştəri nağd ödənişə nisbətən nağdsız ödəniş zamanı xidmət haqqı ilə bağlı artıq ödəniş edirsə, bu halda nağd ödənişə üstünlük verəcək».

V. Bayramov təklif edir ki, vətəndaşın nağdsız ödədiyi vəsaitin 3 faizi dövlət tərəfindən onun hesabına qaytarılsın: «Tutaq ki, vətəndaş rüb ərzində 1000 manat alış-veriş edibsə, rübün sonunda onun plastik kartında 1000 manat alış-veriş etdiyi görünür və həmin 1000 manatın 3 faizi, yəni 30 manat bonus şəklində vətəndaşın plastik kartına yüklənr. Nağdsız ödənişə görə bonus sistemi tətbiq edilsə, dövlət bütün hallarda bundan qazanır, çünki dövriyyəyə cəlb edilən vəsaitin həcmi daha böyük olur».

S. Əliyev son zamanlar ölkədə nağdsız ödənişlərlə bağlı əlavə bir problemin də ortaya çıxmasına diqqət çəkməyi zəruri sayır: «Maliyyə Bazarlarına Nəzarət Palatası kredit götürülməsinə dair şərtləri ağırlaşdırdı. Əgər vətəndaşın başqa bankda krediti varsa, yaxud kreditlə bağlı kiməsə zamin durubsa, maaşı azdırsa, kredit kartı götürə bilmir. Əhatəmizdə olan insanlarla bağlı müşahidələr göstərir ki, faktiki olaraq kredit kartlarının sayı azalıb. İnsanlar kredit kartları ala bilmirlər və banklar getdikcə müştərilərini itirirlər. Maliyyə Bazarlarına Nəzarət Palatasının tətbiq etdiyi sərt qayda Azərbaycanda kredit kartları ilə əməliyyatların azalmasına gətirib çıxaracaq. Bu da nağdsız dövriyyənin artırılması ilə bağlı hökumətin təşəbbüslərinə uyğun olmayacaq».

Beləliklə, Azərbaycanda nağdsız ödənişlər sahəsində əsas problemlər, eləcə də bu problemlərin aradan qaldırılması üçün hansı stimullaşdırıcı və inzibati tədbirlərin görülməsinin zəruriliyi ilə bağlı aydın mövqelər var. Qalır məsələyə kompleks şəkildə yanaşaraq ardıcıl və qəti addımlar atmaq.

## vergi təqvimi

| AVQUST | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | **7** |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | **14** |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | **21** |
| **22** | 23 | 24 | 25 | 26 | 27 | **28** |
| 29 | 30 | 31 | | | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**
22 avqust - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə)** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı ilə bağlı prosedur qaydaları dəyişib

Nazirlər Kabineti «Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları»nda dəyişiklik edib. Bu qayda Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələri, onların rayon (şəhər) şöbələri, mobil səyyar xidmət bölmələri və ASAN xidmət mərkəzlərindəki xidmət bölmələri tərəfindən daşınmaz əmlak üzərində hüquqların, onların məhdudlaşdırılmasının (yüklülüyünün) dövlət qeydiyyatı, həmçinin məhv olmuş daşınmaz əmlak üzərində mülkiyyət hüququnun qeydiyyatının və hüquqların məhdudlaşdırılmasının (yüklülüyünün) ləğv edilməsi ilə bağlı tələb olunan sənədlərin qəbulu, yoxlanılması və verilməsi prosedurunu tənzimləyir.

Qeydiyyat orqanının sənədlərin həqiqiliyinə ciddi şübhəsi varsa, qeydiyyat bir ay müddətinə dayandırıla bilər. Bu barədə qeydiyyat şöbəsi ərizəçiyə 48 saat ərzində qeydiyyatın dayandırılmasını əsaslandırmaqla, yazılı və ya elektron formada (müraciətin daxilolma formasından asılı olaraq) məlumat verməlidir. İndiyə qədər bu halda Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələri (vəzifəli şəxs) şübhə doğuran sənədlərə dair müvafiq dövlət orqanlarına sorğular göndərməli və həmin sorğulara cavab 10 gün müddətində verilməli idi. Bu cür sorğulara vaxtında cavab verməyən vəzifəli şəxslər inzibati məsuliyyətə cəlb edilirlər.

«Daşınmaz əmlakın dövlət reyestri haqqında» qanununda dəyişikliklər edilməsi barədə» 2016-cı il 5 aprel tarixli qanuna əsasən, bu müddət 7 günə endirilib. Bununla əlaqədar «Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları»nda da müvafiq dəyişiklik edilib. Başqa sözlə, Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələri (vəzifəli şəxs) şübhə doğuran sənədlərə dair müvafiq dövlət orqanlarına sorğular göndərməli və həmin sorğulara cavab 7 gün müddətində verilməlidir. Beləliklə, 7 gün müddətində sorğulara cavab verməyən vəzifəli şəxslər inzibati məsuliyyətə cəlb ediləcəklər.

**«Daşınmaz əmlakın dövlət reyestri haqqında» qanununda dəyişikliklər edilməsi barədə» 2016-cı il 5 aprel tarixli qanuna əsasən, bu müddət 7 günə endirilib**

Qeyd edək ki, daşınmaz əmlak üzərində hüquqlar dövlət qeydiyyatına alınmalı olan torpaq sahələri, yer təki sahələri, ayrıca su obyektləri (sututarlar) və torpaqla möhkəm bağlı olub təyinatına tənasübsüz (hədsiz) zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan bütün əşyalar, o cümlədən binalar, qurğular, yaşayış və qeyri-yaşayış sahələri, fərdi yaşayış və bağ evləri, meşələr və çoxillik əkmələr, əmlak kompleksi kimi müəssisələrdir.

beynəlxalq panoram



# Latviyada vergi yığımı gözləniləndən artıq olub

Hökumət bu ilin ilk yarısında vergi yığımı üzrə proqnoz tapşırıqlarına artıqlaması ilə əməl etmişdir. Bildirilir ki, bu ilin yanvar-iyun aylarında 4,55 milyard avro toplanmışdır: bu göstəriciyə fiziki şəxslərin gəlir vergisi, əlavə dəyər vergisi və aksiz yığımları da daxildir.

Beləliklə, hökumət proqnoz tapşırığından 22,9 milyon avro, başqa sözlə, 0,6% artıq vergi cəlb etməyə nail olmuşdur. Buna baxmayaraq, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə bu ilin ilk yarısında toplanılan verginin ümumi həcmi 0,7% az olmuşdur.

# Estoniya ƏDV ödəyicilərinin qeydiyyatı üçün həddi artırır

Hökumət ƏDV ödəyicilərinin qeydiyyatı üçün tələb olunan illik dövriyyə həddini artırmaq barədə qanun layihəsini artıq qəbul etmişdir. Bu addımın atılması kiçik biznesin üzərinə düşən yükün azaldılması məqsədini daşıyır.

Hazırda Estoniyada sahibkar illik dövriyyəsi 16 min avro olduqda ƏDV ödəyicisi ola bilər. Maliyyə Nazirliyi bəyan etmişdir ki, 2018-ci il yanvarın 1-dən illik dövriyyəsi 40 min avrodan az olan müəssisə ƏDV ödəyicisi kimi qeydiyyatdan keçə bilməyəcək. Maliyyə naziri Sven Sesterin sözlərinə görə, ƏDV üzrə qeydiyyat həddinin qaldırılması «bürokratiyanın azalmasına və kiçik biznes üçün daha əlverişli şəraitin yaranmasına imkan verəcək».

# Çilidə balıqçılıq sənayesi üzrə vergi artırılacaq

Ölkənin balıq sənayesi təmsilçiləri bu il vergilərin əlavə 18% artacağını gözləyirlər. Hökumət lisenziya yığımlarının və bir sıra rüsumların artırılması imkanlarını nəzərdən keçirir.

2016-cı ilin ilk yarısında Çilidə fəaliyyət göstərən 63 balıqçılıq şirkəti büdcəyə təxminən 18,3 milyard peso (100 peso=0,2427 manat) ödəmişlər ki, buraya hökumət yanında əyləncəli balıqçılıq fonduna köçürülmüş ödəniş də daxildir (3,6 milyard peso). Hazırda şirkətlər tutduqları balığın hər metrik tonu üçün 17.300 peso ödəyirlər.

# Baqqaliyyə mallarına tətbiq olunan vergilər diferensasiya olunacaq?

Yeni aparılmış araşdırmanın nəticələri göstərmişdir ki, müxtəlif ölkələrdə və ştatlarda baqqaliyyə mallarından tutulan vergilər əhalinin aztəminatlı təbəqələrinin dolanışığına mənfi təsir göstərir. ABŞ-da qazlı və tərkibində şəkər olan içkilər üçün tutulan «soda vergisi» adlanan yeni vergi getdikcə daha geniş yayılmaqdadır. Bu vergi yalnız ilk aylarda Kaliforniya ştatında xəzinəyə 1,2 milyon dollar vəsait gətirmişdir. Berkli ştatı isə şirin içkilərə vergini daha əvvəl tətbiq etmişdi. Filadelfiyada hər litr qazlı su üçün 1,5%-lik yığım iyun ayında qüvvəyə minmişdir. San-Fransisko və Kolorado ştatları bu məsələ ilə bağlı öz qərarlarını sentyabrda verəcəklər.

Lakin ekspertlər diqqəti buna yönəltmişlər ki, bütün baqqaliyyə mallarına total şəkildə vergi tətbiq olunması ABŞ-da aztəminatlı ailələrin dolanışığını çətinləşdirir. İndi ABŞ-da 16 ştat federal və yerli səviyyələrdə baqqaliyyə mallarından orta hesabla 4,3% dərəcə ilə vergi tutur. Ailələrin çoxu üçün bu, hər il yüzlərlə dollar əlavə xərc deməkdir. Yanvar ayında ABŞ-da 22,3 milyon ailə dövlətdən ərzaq üçün dotasiya almışdı. «Soda vergisinin» tətbiqi isə dotasiya alanların siyahısına daha 600 min şəxs əlavə edəcək. Orta təbəqə hazırda ərzağa öz ailə büdcəsinin 13,4%-ni, aztəminatlı təbəqə isə 34,1%-ni (başqa sözlə, 3667 dollar) xərcləyir.



Analitiklər bu məsələyə kompleks yanaşmağı, yəni baqqaliyyə mallarına qoyulan vergiləri azaltmağı (onların rəyinə görə, bununla əhalinin kasıb təbəqəsinə düşən yük yüngülləşdiriləcək), eləcə də yüksək kalorili və ziyanlı ərzaq məhsullarına tətbiq edilən yeni vergini artırmağı (bu, vətəndaşları öz sağlamlıqlarına və ciblərinə daha ehtiyatlı münasibət bəsləməyə vadar edəcək) təklif edirlər.



# Hindistan ən genişmiqyaslı vergi islahatı aparmağı planlaşdırır

1947-ci ildə müstəqillik əldə etdikdən sonra Hindistan vergi sistemində ən böyük dəyişikliklər aparmaq yolundadır. Ölkə parlamentinin yuxarı palatası bu günlərdə qəti addım ataraq mal və xidmətlərə vergi tətbiq olunması barədə qərar qəbul etmişdir. Məsələ bundadır ki, bu mövzu ətrafında müzakirələr on il idi aparılırdı.

ƏDV-nin tətbiq olunmasından sonra ölkənin vergi sistemindəki qarmaqarışıqlığı aradan qaldırmaq tələb olunurdu. İndiyədək federal və yerli, eləcə də ştatlar səviyyəsində müxtəlif yığım və rüsumlar mövcuddur ki, bu sahədə köklü tənzimləməyə ehtiyac vardı. Bu addımın atılması həm də ölkədə biznesin həyata keçirilməsini əhəmiyyətli şəkildə asanlaşdıracaq, nəticədə iqtisadiyyatın inkişafına yeni təkan verəcək.

Köhnə vergi qaydaları korrupsiyaya son dərəcə əlverişli şərait yaratmaqla ölkə səviyyəsində şirkətlərin fəaliyyətini xeyli çətinləşdirirdi. Bürokratiyanın hüdudlarının ağlasığmaz dərəcədə geniş olması isə malların sərhəddən keçirilməsində uzun-uzadı ləngimələrə səbəb olurdu.

Artıq tarixində ilk dəfə olaraq Hindistan özünü satışdan standart vergi tutulan vahid bazarla təqdim edə bilər. İqtisadi araşdırmalar üzrə Milli Şuranın rəyinə görə, bu verginin tətbiqi ölkə iqtisadiyyatının 1,7%-dək böyüməsinə şərait yaradacaq. Vergi normalarının liberallaşdırılması hökumətə imkan verəcək ki, büdcə daxilolmalarını artıra bilsin.

Analitiklər bu fikirdədirlər ki, 1991-ci ildə ilk islahatların təməli qoyulandan indiyədək Narendr Modinin başçılıq etdiyi hökumət tərəfindən milli iqtisadi siyasətdə ən mühüm hadisələr baş vermişdir. Satışdan vergi N.Modinin şəxsi qələbəsi hesab edilir. Növbədə kiçik biznesdən tutulan vergilərin azaldılması və bu sahədə bürokratik yükün yüngülləşdirilməsidir (bu göstərici üzrə hazırda Hindistanın vəziyyəti bərbaddır: Dünya Bankının reytinqində 130-cu yerdədir). Bundan əlavə, böyük məbləğdə maliyyə vəsaiti tələb edən infrastrukturun vəziyyəti də ciddi problem olaraq qalır.

Siyasi risklərin qiymətləndirilməsi üzrə beynəlxalq konsaltinq şirkəti olan «Eurasia Group»un analitiki Saşa Riser-Kositski demişdir: «Satışdan verginin tətbiqindən sonra hökumətin yeni islahatlar aparmaq üçün öz siyasi potensialını xərcləməsi çətin ki, baş versin. Hər halda, 2019-cu ilə qədər kəskin addımların atılacağı gözlənilmir, əsas güc seçkilərdə qələbə qazanmağa yönəldiləcək».

# Ukraynada işləyən təqaüdçülər pensiyalarından vergi ödəyəcəklər

Sosial siyasət naziri Andrey Reva bəyan etmişdir ki, 10 yaşayış minimumundan artıq pensiya alan təqaüdçülər bundan sonra vergi ödəyəcəklər. Nazirliyin mətbuat xidmətinin açıqlamasında deyilir: «İşləyən təqaüdçülər yerlərdə sosial təminat əməkdaşlarına vaxtaşırı olaraq öz təqaüdlərinin vergi tutulan məbləği barədə suallar verirlər, lakin onlar üçün hələ bir dəyişiklik yoxdur. Yenilik yalnız təqaüdlərinin məbləği 3 yaşayış minimumundan (4197 qrivna) 5 yaşayış minumumuna qədər (10.470 qrivna) olan işləməyən təqaüdçülərə aiddir. İndiyədək onların hamısı 15% həcmində vergi ödəyirdilər».

Qeyd edək ki, bir qədər bundan əvvəl Ali Rada 4197 qrivnadan (270 manatdan) 10.470 qrivnayadək (672 manatadək) təqaüdlərin 15%-lik vergidən azad olunması barədə qanun layihəsini qəbul etmişdi.



## krossvord

**Yuxarıdan aşağı:** 1.Tutuquşukimilər dəstəsinə aid fəsilə; 2.Neptunun peyki; 3.Su, şəkər və nişasta istifadə edilərək hazıralanan türk şirniyyatı; 4.«Nizami» filminin (1982) baş qəhrəmanının obrazını canlandıran sənətkarın adı. Azərbaycanın görkəmli opera və estrada müğənnisi, bəstəkar, SSRİ xalq artisti; 5.Mal ətindən hazırlanan, ingilis mətbəxinə aid xörək; 6.Kür-Araz düzənliyinin ayrı-ayrı hissələrində təsadüf edilən və Azərbaycanın «Qırmızı kitab»ına daxil edilmiş quş; 7.Şotlandiyanın şimal-qərbində şəhər; 13.Bir şeyin kənarlarından, uclarından az-çox bərabər dərəcədə aralı olan yer; 15.Tərkibində kalium və natrium alümosilikatı olan süxur (mineral); 16.Azərbaycan Respublikasının Əməkdar elm xadimi və Əməkdar mədəniyyət işçisi, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının müdirinin adı; 17.İnternaturanı keçən tələbə; 18.Nazik, yarımşəffaf parça; 20.Türkiyənin «Trabzonspor» komandasında hücumçu mövqeyində çıxış edən əslən azərbaycanlı futbolçunun adı. Hazırda Rusiyanı təmsil edir; 21.Rusiya Federasiyasının Kareliya Respublikasında çay. **Soldan sağa:** 1.Firmaların birləşməsi; 8.Venesuelanın paytaxtı; 9.Rusiyada çay; 10.Tanrının mövcudluğunu və kainatın onun tərəfindən yaradıldığını etiraf edən, lakin tanrının insanlara və təbiətə müdaxiləsini, dinlərin tanrı tərəfindən yaradılmasını inkar edən təlim; 11.Həndəsi fiqur; 12.Mərkəzi Afrikada dövlət; 14.Qədim yunan mifologiyasında hərb və zəfər, eləcə də müdriklik, bilik, incəsənət və sənətkarlıq ilahəsi; 19.İfaçılıqda səs diapozonu; 21.Əsərlərini alman dilində yazmış yəhudi əsilli yazıçı; 22.Rusiyada şəhər; 23.Məşhur İsveçrə riyaziyyatçısı. Ehtimal nəzəriyyəsinin və riyazi analizin banilərindən biri; 24.İrlandiya və Şotlandiyada geniş yayılmış ənənəvi rəqs və musiqi ritmi; 25.İstirahət və sağlamlıq mərkəzi.



*«Nizami» filmindən fraqment (1982)*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Etalon; 2.Ondantra; 3.Elton *(Con)*; 4.Tərtər; 5.İntriqa; 6.Monax; 7.Forint; 13.İran; 15.Posadas; 16.Skelet; 17.Balans; 18.Karrar; 20.Balet; 21.Koala. **Soldan sağa:** 1.Eqosentrizm; 8.Auditor; 9.Tenor; 10.Oktan; 11.Əmirxan *(bəy)*; 12.Rasim *(Balayev)*; 14.«Kaspi»; 19.Kabbala; 21.Kasta; 22.Lalə; 23.Bayandur; 24.Tot; 25.Dispanser.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 10000

## idman

# Güləşçimiz Azərbaycana üçüncü medalı qazandırdı



Rio-de-Janeyroda təşkil olunan XXXI Yay Olimpiya Oyunlarının yunan-Roma güləşi yarışlarında 130 kiloqram çəki dərəcəsində çıxış edən Azərbaycan güləşçisi Sabah Şəriəti bürünc medal qazanıb.

Mübarizəyə səkkizdəbir final mərhələsindən qoşulan Sabah Şəriəti ilk görüşündə ABŞ idmançısı David Timoti Robert Smitdən üstün olub. Dörddəbir final mərhələsində isə güləşçimiz dünya və Avropa çempionu, «Bakı-2015» ilk Avropa Oyunlarının qalibi, «London-2012»nin bürünc mükafatçısı türkiyəli Rza Kayaalpa məğlub olub. Rəqibin finala yüksəlməsi güləşçimizə təsəlliverici görüşlərə qatılmaq imkanı verib. Sabah Şəriəti Venesuela idmançısı Ervin Coz Karaballo Kabreraya qalib gələrək bürünc medal uğrunda güləşməyə nail olub. Almaniya idmançısı Eduard Poppa da qalib gələn Sabah Şəriəti «Rio-2016»nın bürünc medalına sahib olub və Azərbaycana üçüncü medalı qazandırıb.

Güləşçi Azərbaycanın paytaxtında keçirilən «Bakı-2015» ilk Avropa Oyunlarının gümüş medalçısıdır. 2013 və 2014-cü ildə Bakıda keçirilən və Heydər Əliyevin xatirəsinə həsr olunan Qızıl Qran-pri turnirinin qızıl medalına sahib olub. Sabah Şəriəti I Avropa Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında böyük xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif edilib.

# Avarçəkənimiz olimpiadada bürünc medal əldə etdi



Avqustun 16-da «Rio-2016»da kayak yarışlarında final yarışları keçirilib.

Azərbaycan idmançısı İnna Osipenko-Radomskaya bu mərhələdə mübarizə aparıb.

1 nəfərlik kayak qayığı (K-1) ilə 200 metr məsafədə çıxış edən idmançımızın bu mərhələdə rəqibləri İnna Klinova (Qazaxıstan), Linnea Stensils (İsveç), Sarah Quyot (Fransa), Liza Karrinqton (Yeni Zelandiya), Marta Valçikeviç (Polşa), Tereza Rivas Portela (İspaniya) və Spela Yaniç Ponomarenko (Sloveniya) olub. 200 metr məsafəyə yürüşə qatılan idmançımız finişə 40,401 saniyəyə çatıb və bürünc medala sahib olub.

Yeni Zelandiyalı Liza Karrinqton 38,864 saniyə nəticə ilə qızıl, polşalı Marta Valçikeviç 40,279 saniyə göstərici ilə gümüş medal qazanıb.

Qeyd edək ki, bu, İnna Osipenko-Radomskayanın ardıcıl 4 olimpiadada 5-ci medalı olub.

# Cüdoçularımız «Rio-2016»dan iki gümüş medalla qayıtdılar




Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarının cüdo yarışlarında iştirak edən Azərbaycan idmançıları avqustun 14-də Vətənə qayıdıblar.

Yarışa altı kişi cüdoçu ilə qatılan Azərbaycan millisi mötəbər turnirdə iki gümüş medal əldə edib. Rüstəm Orucov 73kq, Elmar Qasımov 100 kq çəki dərəcəsində finaladək irəliləyib və yalnız həlledici qarşılaşmada məğlub olublar.

Qazanılan iki gümüş medal sayəsində yığmamız medal sıralamasına görə, turnirin on ikincisi olub. Yarışa qatılan 136 ölkədən yalnız 26-sı medal qazana bilib.

Azərbaycan postsovet məkanında yalnız Rusiyadan geri qalaraq ikinci olub.

# Kamran Şahsuvarlı Olimpiadanın ən azı bürünc medalını təmin edib

«Rio-2016» Olimpiya Oyunlarının boks yarışlarında Kamran Şahsuvarlı (75 kq) yarımfinal mərhələsinə adlayıb.

Əvvəlki iki görüşdə Zao Minqqanq (Çin) və Artyom Çebotaryovu (Rusiya) mübarizədən kənarlaşdıran boksçumuz dörddəbir finalda qazaxıstanlı boksçu - dünya çempionu Janibek Alimxanlı ilə üzüzə gəlib. Döyüşdə rəqibinə 2:1 hesabı ilə qalib gələn K.Şahsuvarlı yarımfinal mərhələsinə adlamaqla ən azı bürünc medalı təmin edib.

Digər boksçumuz Elvin Məmişzadə səkkizdəbir final mərhələsində qazaxıstanlı Oljas Sattıbayevlə qarşılaşıb. Dünya çempionu, birinci Avropa Oyunlarının qalibi, qitə çempionatlarının mükafatçısı E.Məmişzadə rəqibini hər üç raundda məğlub edərək növbəti mərhələyə yüksəlib.

Qeyd edək ki, idmançımız qazaxıstanlı rəqibinə 2012-ci ildə Bakıda keçirilən «Böyük İpək Yolu» turnirində də qalib gələrək yarışda birinci yeri tutmuşdu.



## mozaika

# «Ağlatmayan» soğan

tam ciddi

Yaponiyanın qida ekspertləri aşpazların gündəlik problemlərindən birinin həlli yolunu tapıblar: mütəxəssislər yeni, gözün selikli qişasını qıcıqlandırmayan soğan növü yetişdiriblər.

Soğan doğrayarkən göz yaşına səbəb onun bu proses zamanı üst qabığının dağılmasıdır ki, bunun nəticəsində havaya kükürdlü qaz nüfuz edir. Bu halda gözün selikli qişası qıcıqlanır və göz yaşı əmələ gətirir. Tərkibində kükürdün minimal miqdara endirildiyi soğanın bu növünə «Gülən şar» adı verilib. Bu tərəvəzin yetişdirilməsi istiqamətində alimlərin 20 il iş apardıqları bildirilir.

Tamına görə armudla almanın qarışığını xatırladan soğanın bu növü dairəvi formada və qoxusuzdur. Mütəxəssislər soğanın bu növünün salatların əvəzsiz tərəvəzi olacağına inanırlar. «Gülən şar»ın artıq bu ilin payızından yapon bazarlarında satışa çıxarılacağı bildirilir.



# Frans Kafkanın arxivi İsrail Milli Kitabxanasına verilib

tarix

Ali ədalət məhkəməsi yazıçı Frans Kafkanın dostu və irsinin araşdırmaçısı Maks Brodun arxivi barədə qərar qəbul edib. Məhkəmənin qərarına əsasən, arxivə daxil olan əlyazmalar və digər sənədlər Qüds şəhərində yerləşən Milli Kitabxanaya verilməlidir. Qeyd edək ki, Kafkanın əlyazmalarının sahibi ilə İsrail Milli Kitabxanası və İsrail dövləti arasında məhkəmə çəkişməsi 2008-ci ildən bu yana davam edirdi.

Kafka ölümündən öncə Maks Broda əlyazmalarını məhv etməyi tapşırsa da, o, bunu etməmiş, əksinə, bir hissəsini çap etdirərək yazıçının XX əsrin ən məşhur nasirlərdən birinə çevrilməsinə səbəb olmuşdur. Maks Brod isə həyatının sonuna yaxın bu əlyazmaları katibəsi Ester Hoffeyə, o isə qızları Yeva və Rufa vəsiyyət etmişdi. Məhkəmə araşdırması zamanı məlum olub ki, Brod Hoffe bacılarının iddia etdiyi kimi, əlyazmaları anasına hədiyyə etməmişdi. O, Kafkanın arxivlərinin kataloq halına salınıb Qüdsdəki Yəhudi Universitetinə və ya Təl-Əvivin şəhər kitabxanasına, yaxud da İsrailin hər hansı digər ictimai təşkilatına təqdim edilməsini istəmişdi.

Brodun vəsiyyətinin əksinə hərəkət edən Hoffe ailəsi kolleksiyanın bir hissəsini hərraclarda satıb. Artıq məlumdur ki, Kafkanın «Proses» əlyazmasının satışından Ester Hoffe 2 milyon dollar qazanıb.

Qeyd edək ki, Frans Kafka 1883-cü ildə Praqada almandilli yəhudi ailəsində doğulub. XX əsrin əsas almandilli yazıçılarından hesab olunur. Onun «Çevrilmə», «Qəsr» və digər romanları bu gün də ən çox oxunan əsərlərdəndir. Onların böyük əksəriyyəti ölümündən sonra çap olunub. İsrail Milli Kitabxanası Kafkanın əlyazmalarından ibarət sərginin geniş kütlələr üçün açıq olacağını bildirib.

# «Skype»la bağlanan nikah...

camiyyat

İtaliyanın Ali Məhkəməsi italiyalı qadınla Pakistan vətəndaşı arasında «Skype» proqramı vasitəsilə bağlanan nikahı qanuni sayıb. Ali Məhkəmənin qərarına əsasən, 2012-ci ildə gənclərin nikahından imtina edən San-Covani in Persiçeto şəhərinin hökuməti bu nikahı qeydiyyatdan keçirməlidir. Ali Məhkəmə gənclərin öz vətənlərində olmalarına baxmayaraq, ailə qurmaq qərarlarını aydın şəkildə ifadə etdiyini əsas gətirib. Bir qədər əvvəl «məsafəli nikahı» ilkin məhkəmə instansiyası və apelyasiya məhkəməsi də qəbul etmişdi.

Qeyd edək ki, Silvio Berluskoninin son hökuməti (2008-2011) tərəfindən miqrasiyaya nəzarətin sərtləşdirilməsi üzrə tədbirlərin qəbul edilməsindən sonra digər ölkə vətəndaşları İtaliya ərazisində olmalarına dair sənədləri olmasa Apennində italiyalılarla ailə həyatı qura bilməzlər. Bununla yanaşı, İtaliya vətəndaşı ilə nikaha girən şəxs bu ölkədə yaşayış hüququna sahib olur. Hökumət bu yolla saxta nikahla mübarizə aparmağa çalışır.

# Robotlar «Ginnesin rekordlar kitabı»nda

rekord

Çinin Şandun şəhərində mindən çox robot «Ever Win» şirkətinin mütəxəssisləri tərəfindən meydanda sıra ilə düzülərək eyni anda rəqs ediblər. Hündürlükləri 43,8 sm təşkil edən «QRC-2» adlı robotlar bir mobil telefondan idarə olunublar. Xüsusi şifrələmə texnologiyası idarəetmə sistemini digər smartfonlardan gələn siqnalların müdaxiləsindən mühafizə edib.



Bununla da «Ever Win» şirkəti sinxron rəqs edən robotların sayına görə yeni dünya rekorduna imza atıb. Rəqs zamanı bəzi robotlarda texniki problemlər yarandığından yalnız 1007 mexaniki rəqqas «Ginnesin rekordlar kitabı»na daxil olunub.

Qeyd edək ki, sinxron rəqs edən robotların sayına görə ilk dünya rekordu (540 robot) Çinin robot istehsalçısı olan «UBTECH» şirkətinə aiddir.

# Displeydəki təsvirə toxunmaq mümkün oldu

texnologiya

Massaçusets Texnologiya İnstitutunun alimləri tərəfindən yaradılmış texnologiya heç bir əlavə qurğu istifadə etmədən çəkilmiş videodakı obyektlərin hərəkətini dəyişdirməyə imkan verir.

Yeni texnologiya vibrasiya olunan obyektlərin hərəkətinin ələ keçirilməsinə əsaslanır. Bu texnologiya institutun kompüter texnologiyaları və süni intellekt sahəsində işləmələr üzrə məsul bölməsi olan «CSAIL»in («Computer Science and Artificial Intelligence Laboratory») alimləri tərəfindən hazırlanıb.

İnstitutun ixtirası çəkiliş zamanı obyektdən keçən vibrasiyanın təhlilinə əsaslanır. Çəkiliş üçün istənilən videokameradan istifadə etmək olar. Videofraqmentin təhlilinə bir neçə saniyə vaxt sərf olunur, bundan sonra çəkilmiş material əsasında yaradılmış interaktiv obyektləri bütün fiziki xüsusiyyətlərini saxlamaq şərti ilə dəyişdirmək mümkündür. Belə ki, kadrda hər hansı bir şəxsin əlini yuxarı qaldırmaq, yana əymək və ya həmin şəxsi kadrdan asanlıqla silmək olar.



Yeniliyin yaradıcıları bu texnologiyanın film və videooyunlarda xüsusi effektlərin hazırlanmasında tətbiqini proqnozlaşdırırlar. İnstitutun alimləri yeni texnologiyanın virtual və artırılmış reallıqla birgə istifadə potensialını da qeyd ediblər.

# Yeni antibiotik

tababat

Bakterial infeksiyaların müalicəsi metodunun axtarışları zamanı alimlər tərəfindən yeni antibiotik aşkarlanıb. Həyata keçirilən analizlər təxminən insanların 30 faizinin burun boşluğunda qızılı stafilokokkun bakteriyalarının yaşadığını göstərib.

Qeyd edək ki, bu bakteriyanın antibiotiklərə qarşı ən dayanıqlı olan metisillin-rezistent qızılı stafilokokk növü bütün dünyada sağlamlıq üçün böyük təhlükə daşıyır. Bununla yanaşı, alimlər burun boşluğunda yaşayan Staphylococcus lugdenensis adlı başqa bakteriyaya da rast gəliblər. Onlar iddia edirlər ki, məhz bu bakteriya öz antibiotikini ifraz edərək bəzi insanlarda stafilokokkun yayılmasının qarşısını alır.

Tyubinqen Universitetinin mikrobioloq alimi Andreas Peşel və onun həmkarları «luqdunin» adlandırdıqları bu yeni antibiotiki qızılı stafilokokka yoluxmuş gəmiricilər üzərində testdən keçirərək uğurlu nəticə əldə ediblər: onlar antibiotikin bakteriya ilə səmərəli mübarizə apardığını müəyyənləşdiriblər.

**Müdriklər deyib ki...**

*«Həqiqətsiz həyat mümkün deyil. Bəlkə də həqiqət elə həyatın özüdür».*

*Frans Kafka (1883-1924)*

